RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 161 (10181) 5 sentyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan-İtaliya münasibətləri etimad və strateji tərəfdaşlıq üzərində qurulub



İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır. Təkcə ötən il iki ölkə arasındakı ticarət dövriyyəsi 12 milyard dollara çatıb. Azərbaycan İtaliyanın həm neft, həm də təbii qaz təchizatında əsas tərəfdaşlardan biridir. TAP layihəsi vasitəsilə çatdırılan qaz Avropanın, xüsusən də İtaliyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilib.

Lakin tərəfdaşlıq təkcə neft və qaz sahəsi ilə məhdudlaşmır. İşğaldan azad edilmiş torpaqlarda bərpa və quruculuq işlərində də bu özünü göstərir. İtaliya şirkətləri Qarabağ və Şərqi Zəngəzurda 23-dən çox mühüm layihə icra edərək bu ərazilərdə yenidənqurma işlərində ön sıralarda gedir.

Bakıda açılan İtaliya-Azərbaycan Universiteti isə artıq 500-dən çox tələbəyə qapı açıb və iki ölkə arasında canlı mədəniyyət körpüsü rolunu oynayır.

Cari ilin mayında Baş nazir Ciorcia Meloninin regiona səfəri zamanı Ermənistandakı proqramını bitirən kimi dərhal Azərbaycana gəlməsi də rəsmi Bakıya olan xüsusi diqqətin təzahürü idi.

Mayın 4-də Prezident İlham Əliyev İtaliyanın Baş naziri Ciorcia Meloni ilə mətbuata bəyanatında bu jesti xüsusi qeyd edərək deyib: "Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür".

Öz növbəsində mətbuata bəyanatında İtaliya Baş naziri vurğulayıb ki, İtaliya Azərbaycanla həyata keçirdiyi mühüm tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq kimi görür və bundan sonra da uzunmüddətli olmasını istəyir.

Həmçinin Bakıda Prezident İlham Əliyevin Ciorcia Meloni ilə geniş tərkibdə görüşü zamanı Baş nazir "Fikrimizcə, Azərbaycan bizim beynəlxalq müstəvidə çətin vəziyyətdə olmağımıza baxmayaraq, strateji tərəfdaşımızdır. Eyni zamanda Azərbaycan körpü rolunu oynayır. Biz bu körpünün rolunu elan etmək istəyirik. Bu körpü buradan Aralıq dənizi regionuna qədər çox uzun bir körpü ola bilər", - deyə bəyan edib.

Bütün bunların fonunda da görünür ki, Bakı və Roma arasındakı münasibətlər formal diplomatik çərçivələri çoxdan aşıb və real nəticələrə söykənən strateji tərəfdaşlıq modelinə çevrilib. İki ölkə rəhbərinin səmimi dialoqu və razılaşdırılan yeni layihələr göstərir ki, bu tərəfdaşlıq dinamik şəkildə inkişaf edir və energetikadan müdafiə sənayesinə, işğaldan azad edilmiş torpaqların bərpasından təhsilə qədər geniş bir sahəni əhatə edir.

3

## Prezident İlham Əliyev İtaliyanın Baş nazirini təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Baş naziri Ciorcia Melonini ən uzun müddət vəzifədə olması münasibətilə təbrik edib.**



AZƏRTAC xəbər verir ki, bu barədə dövlətimizin başçısının "X" sosial şəbəkə hesabında paylaşım edilib.

"İtaliya Respublikasının tarixində ən uzun müddət Baş nazir vəzifəsində çalışan şəxs olması münasibətilə İtaliyanın Baş naziri Ciorcia Meloniyə səmimi təbriklərimi çatdırıram.

Bu tarixi nailiyyət onun güclü liderliyini, siyasi qətiyyətini və İtaliya xalqının ona olan etimadını əks etdirir.

Baş nazir Meloninin Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsində şəxsi rolunu və dəyərli töhfəsini yüksək qiymətləndirirəm.

Əminəm ki, dostluğumuz və qarşılıqlı faydalı əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da dərinləşəcək və genişlənəcək", - deyə təbrikdə bildirilir.

## Ciorcia Meloni Prezident İlham Əliyevə təşəkkür edib




İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Prezident İlham Əliyevə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, İtaliya hökumətinin rəhbəri bu barədə "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib. Paylaşımda deyilir: "Hörmətli Prezident İlham Əliyev, bu sözlərə və xalqlarımızı birləşdirən səmimi dostluğa görə Sizə təşəkkür edirəm. İllər ərzində İtaliya və Azərbaycan ortaq baxış və qarşılıqlı maraqlara əsaslanan möhkəm əməkdaşlıq qurublar. Strateji tərəfdaşlığımızı daha da gücləndirmək istiqamətində birgə gördüyümüz işlərdən böyük qürur duyuram. Əminəm ki, qarşıdakı dövrdə xalqlarımızın mənafeyi naminə əməkdaşlıq üçün yeni və mühüm imkanlar yaranacaq".

## Azərbaycan-ATƏT əməkdaşlığında yeni səhifə açılır




ATƏT Parlament Assambleyasının prezidentinin Bakıya səfəri və Prezident İlham Əliyevlə görüşü xüsusi siyasi məna qazanır. Başqa sözlə, Azərbaycan ATƏT-dən uzaqlaşmır, əksinə, təşkilatın fundamental prinsiplərinə sadiq qalaraq daha obyektiv, balanslı və real təhlükəsizlik çağırışlarına uyğun fəaliyyət göstərməsini istəyir. Azərbaycanın mövqeyi aydındır: keçmişdə baş vermiş uğursuzluqlar gələcək əməkdaşlığın qarşısını almamalıdır, əksinə, həmin təcrübə yeni münasibətlər üçün dərsə çevrilməlidir. Minsk qrupunun tarixdə qalan uğursuz vasitəçilik modeli ilə ATƏT-in Parlament Assambleyası çərçivəsində bu gün davam edən parlament dialoqunu eyniləşdirmək doğru olmaz.

4

## Azərbaycan "yeraltı müharibə"ni də təkbaşına aparır

### Beynəlxalq təşkilatdan umduğumuz bu terrora obyektiv qiymətdir



Müharibənin Azərbaycanın qələbəsi ilə bitməsinə baxmayaraq, faktlar "yeraltı müharibə"nin hələ davam etdiyini göstərir. Mina hadisələri insanların gündəlik həyat fəaliyyətini məhdudlaşdırır, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan əhali üçün əlavə risklər yaradır. Beynəlxalq görüşlərdə, ən vacib məqamlarda bu məsələni önə çəkən Prezident İlham Əliyev bu günlər ATƏT Parlament Assambleyasının prezidentini Pere Joan Pons Sanpietronu qəbul edərkən də bu problemi qabartmışdır. ATƏT Parlament Assambleyasının prezidenti Bakıda keçirilən "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda keçirilən 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının əhəmiyyətinə toxunaraq minalar probleminin ATƏT Parlament Assambleyasının gündəliyində də müzakirə olunduğunu bildirmişdir.

5

## Revanşizmə xidmət edən hər bir təxribat iflasa məhkumdur

Fransadakı Erməni Təşkilatları Koordinasiya Şurası (CCAF) tərəfindən avqustun 31-dən sentyabrın 4-dək Paris meriyasının qarşısında təşkil olunmuş aksiya da erməni diasporunun və anti-Azərbaycan dairələrinin növbəti uğursuz cəhdindən başqa bir şey deyil. Bakıda ağır cinayətlərə görə məhkum edilmiş separatçıları, xunta rəhbərlərini və terrorçuları "siyasi məhbus" kimi qələmə verməyə çalışan erməni lobbisi Avropa ictimaiyyətinin rəyini manipulyasiya etməyə, ölkəmizə qarşı süni informasiya təzyiqi formalaşdırmağa çalışır. Lakin real faktlardan və hüquqi əsaslardan uzaq olan bu cür mənasız addımlar obrazlı desək, "stəkanda fırtına yaratmaq" cəhdindən uzağa gedə bilməz. Çünki erməni lobbisinin "günahsız ermənilər" kimi təqdim etdiyi həmin şəxslər faktiki olaraq mülki əhaliyə qarşı və digər ağır müharibə cinayətlərində, terrorçuluqda, separatçılığı maliyyələşdirməkdə ittiham olunaraq layiqli cəzalarını alıblar. Onların arasında Avropada maliyyə fırıldaqlarında adı hallanan Ruben Vardanyan kimi fiqurlar da var.

4

## Şuşanın daşları da bizə əmanətdir



Şuşa adi turizm məkanı deyil, həm də xalqımızın yaddaşında xüsusi yeri olan, hər daşı, qayası, küçəsi tarix danışan müqəddəs şəhərdir. Bu şəhərin azadlığı uğrunda Azərbaycan əsgəri canından keçib, qan töküb. Bu gün Şuşanın küçələrində rahat addımlamaq, Cıdır düzünün seyrinə çıxmaq, şəhərin gözəlliyinə tamaşa etmək bizə zövq verə bilər. Amma bunun arxasında böyük bir qəhrəmanlıq, ağır itkilər və şəhidlərin əmanəti dayanır. Məhz buna görə də Şuşaya səfər edən insan ilk növbədə turist deyil, bu müqəddəs torpağın sahibi olduğunu xatırlamalıdır.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi də məsələ ilə bağlı ictimaiyyətə müraciət edərək bildirib ki, belə hallar ilk dəfə baş vermir. Maarifləndirmə tədbirlərinə və cərimələrə baxmayaraq, bəzi şəxslər qaya daşlarını yazılarla korlayırlar. Qurum hər bir daşı üzərində güllə və qan izlərinin olduğu Şuşada əhalini belə hallara qarşı birgə mübarizəyə çağırıb.

7

## V.İ.Sadıqovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vaqif İsmayıl oğlu Sadıqov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2026-cı il*

## A.K.Əcəmovun Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Keykavus oğlu Əcəmov Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2026-cı il*

## Bakı Metropoliteninin yeni stansiyasının "20 Sentyabr" adlandırılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 262** **Bakı şəhəri, 4 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində dövlət suverenliyinin bərpa olunduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsünə əsasən Bakı Metropoliteninin Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, 194 ünvanında yerləşən yeni stansiyası "20 Sentyabr" adlandırılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan-İsveç münasibətlərinin inkişafı və regional təhlükəsizlik məsələləri müzakirə olunub

**Sentyabrın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçin Azərbaycanda yeni təyin olunmuş səfiri Luis Morsinqlə görüşüb.**



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, diplomatik fəaliyyətində uğurlar arzulayıb. Azərbaycan və İsveç arasında mövcud əlaqələrin inkişaf etdirilməsi baxımından səfirin fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Görüşdə Azərbaycan-İsveç ikitərəfli münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, humanitar və təhsil sahələrində əməkdaşlığın perspektivləri, habelə regional məsələlər müzakirə olunub.

İki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin müntəzəm əsasda keçirilməsinin ikitərəfli gündəliyin daha da inkişaf etdirilməsinə töhfə verdiyi vurğulanıb. Bu xüsusda qarşılıqlı səfərlərin və yüksəksəviyyəli təmasların davam etdirilməsinin vacibliyi qeyd edilib.

Regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov bölgədə davamlı sülh və sabitliyin təmin olunmasına yönəlmiş Azərbaycanın səyləri, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi, eləcə də regionda yeni əməkdaşlıq imkanları barədə qarşı tərəfə məlumat verib.

Görüşdə həmçinin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, regional bağlantılar, enerji təhlükəsizliyi və qarşılıqlı maraq doğuran digər beynəlxalq məsələlər müzakirə olunub.

Səfir Luis Morsinq Azərbaycan ilə İsveç arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

## Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığının inkişafı müzakirə olunub

**Sentyabrın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın yeni təyin olunmuş xarici işlər naziri Muxtar Tleuberdi arasında telefon danışığı baş tutub.**




Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramov Muxtar Tleuberdini xarici işlər naziri təyin olunması münasibətilə səmimi-qəlbdən təbrik edib, ona uğurlar arzulayıb.

Tərəflər Azərbaycan ilə Qazaxıstan arasında strateji münasibətlərin cari gündəliyi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın mövcud vəziyyəti, habelə qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycan-Qazaxıstan münasibətlərinin dostluq, qardaşlıq, qarşılıqlı etimad və həmrəylik prinsipləri əsasında dinamik şəkildə inkişaf etdiyini məmnunluqla qeyd edib. İkitərəfli əlaqələrin bütün sahələrdə daha da genişləndirilməsi və yeni məzmunla zənginləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı həmçinin beynəlxalq və regional təşkilatlar çərçivəsində iki ölkə arasında səmərəli əməkdaşlıq və qarşılıqlı dəstək yüksək qiymətləndirilib. Çoxtərəfli platformalarda qarşılıqlı fəaliyyətin və mövqelərin əlaqələndirilməsinin bundan sonra da davam etdirilməsinin vacibliyi qeyd olunub. Telefon danışığı zamanı eyni zamanda qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Qazaxıstanda Azərbaycanın sağlamlıq turizmi potensialı təqdim edilib

**Astanada səfərdə olan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) nümayəndə heyəti Azərbaycanın Qazaxıstandakı səfirliyində bu ölkənin turizm şirkətlərinin nümayəndələri ilə görüş keçirib.**



Görüşdə Azərbaycanın turizm, o cümlədən sağlamlıq turizmi sahəsində imkanları barədə ətraflı məlumat verilib.

Qazaxıstanın turizm şirkətlərinin nümayəndələrinə həmçinin AHİK-in sağlamlıq mərkəzləri, burada müalicə və istirahət üçün yaradılmış əlverişli şərait, müasir tibbi avadanlıqlar, tibbi xidmətlər və təbii müalicə üsulları haqqında təqdimat keçirilib. İştirakçılar AHİK-in "Kurort" Turizm İnformasiya Mərkəzi, yollayışların elektron təqdimatı və "e-ahik" Elektron Rezervasiya platforması barədə də məlumatlandırılıb.

Bununla yanaşı, görüşdə Azərbaycanın turizm, eləcə də sağlamlıq turizmi potensialını və AHİK-in sağlamlıq mərkəzlərinin fəaliyyətini əks etdirən videomateriallar nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb.

Görüş zamanı ölkəmizin turizm imkanlarının Qazaxıstanda daha geniş tanıdılması, turizm şirkətləri ilə əlaqələrin inkişaf etdirilməsi və bu sahədə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

## Milli Məclisin Sədri Sahibə Qafarova Cenevrə Universitetində çıxış edib

**Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasında işgüzar səfərdədir. Səfər çərçivəsində parlamentin Sədri Cenevrə Universitetində "Sülhün, dialoqun və davamlı inkişafın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusunda çıxış edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova çıxışında parlament diplomatiyasının beynəlxalq münasibətlərdə sülhün, dialoqun və əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynadığını qeyd edib. O bildirib ki, parlamentlər fikir ayrılıqlarının qarşıdurma deyil, müzakirə, qaydalar və məsuliyyət çərçivəsində idarə olunması üçün mühüm platformadır. Milli Məclisin Sədri ölkələr arasında mövcud fikir ayrılıqlarının aradan qaldırılması, qarşı tərəfin mövqeyinin daha yaxşı anlaşılması və dialoqun davam etdirilməsi baxımından parlamentlərə mühüm imkanlar verildiyini söyləyib.

O bildirib ki, parlament diplomatiyası müxtəlif formalarda, o cümlədən parlament rəhbərlərinin görüşləri, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, komitələrarası əməkdaşlıq, regional və qlobal parlament forumlarında iştirak vasitəsilə həyata keçirilir.

Münasibətlərin gərgin olduğu dövrlərdə parlament diplomatiyasının xüsusi əhəmiyyət daşıdığını vurğulayan Milli Məclisin Sədri bildirib ki, belə vəziyyətlərdə parlamentlər əlaqələrin qorunmasına və tərəflər arasında ünsiyyətin davam etdirilməsinə töhfə verirlər. Spiker deyib ki, dialoq bütün problemləri dərhal həll etməsə də, tam səssizlik və əlaqələrin kəsilməsi gərginliyin daha da artmasına səbəb ola bilər. O, parlamentarilərin qarşılıqlı anlaşılmazlıqları aradan qaldırmaq, narahatlıqları izah etmək və müzakirənin davam etdirilə biləcəyi ortaq məqamları müəyyənləşdirmək imkanına malik olduğunu qeyd edib.

Sahibə Qafarova çıxışında dialoqu parlament diplomatiyasının əsasını təşkil edən amil kimi səciyyələndirib. Qeyd edilib ki, həqiqi dialoq yalnız mövqelərin ifadə olunmasından deyil, qarşı tərəfi dinləməkdən, onun mövqeyinin arxasında dayanan narahatlıqları anlamaqdan və qarşılıqlı etimadı formalaşdırmaqdan keçir.

O, sülh anlayışının yalnız münaqişənin və zorakılığın sona çatdırılması ilə məhdudlaşmadığını vurğulayıb. Parlamentin Sədri bildirib ki, davamlı sülh üçün işlək institutların, ədalətli imkanların, sosial rifahın və insanların gələcəyə inamının təmin edilməsi vacibdir. Bu baxımdan sülh və davamlı inkişaf bir-biri ilə sıx bağlıdır.

Davamlı inkişafın sülhün möhkəmlənməsi üçün mühüm zəmin yaratdığını qeyd edən Sahibə Qafarova bildirib ki, bərabərsizlik, işsizlik, sosial təcrid və zəif institutlar cəmiyyətdə etimadı azaldır və qeyri-sabitliyə səbəb olur. O, parlamentlərin öz əllərindəki vasitələrdən istifadə edərək bu problemlərin həllinə töhfə verdiyini deyib.

Spiker parlamentlərarası əməkdaşlığın ölkələr arasında etimadın formalaşmasına xidmət etdiyini deyib. Bildirilib ki, parlamentarilər təcrübə mübadiləsi aparmaq, müxtəlif ölkələrin qarşılaşdığı problemlərin həlli yollarını müzakirə etmək və bir-birlərinin təcrübəsindən yararlanmaqla əməkdaşlıq imkanlarını genişləndirə bilərlər.

Milli Məclisin Sədri bildirib ki, parlament diplomatiyası ölkələr arasında fikir ayrılıqları olsa belə, dialoqun və əməkdaşlığın davam etdirilməsinə mühüm töhfə verir. Parlamentarilər təcrübə mübadiləsi apararaq bir-birindən öyrənə, yanlış anlaşılmaları aradan qaldıra və qarşılıqlı etimad yarada bilərlər. Bu əməkdaşlıq yalnız ikitərəfli münasibətlərdə deyil, regional və qlobal platformalarda da mühüm əhəmiyyət daşıyır.

O qeyd edib ki, davamlı sülhün təmin olunması üçün yalnız siyasi razılaşmalar deyil, insanların təhlükəsizliyi, imkanları, sosial rifahı və dövlət institutlarına inamı da vacibdir. Parlament diplomatiyası dialoq üçün imkan yaradır, dialoq isə sülhün möhkəmlənməsinə şərait yaradır. Buna görə də parlamentlərin beynəlxalq əməkdaşlığı sülh və davamlı inkişaf üçün mühüm vasitələrdən biridir.

Çıxışına yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova parlament diplomatiyasını yalnız böyük sazişlərlə ölçməyin düzgün olmadığını bildirib. Spiker qeyd edib ki, böhranın dərinləşməsinin qarşısının alınmasında, anlaşılmazlığın aradan qaldırılmasında və çətin dövrdə münasibətlərin qorunub saxlanılmasında da parlament diplomatiyası əhəmiyyətini göstərir.

***"Azərbaycan"***

## Bakıda Türk dünyası travmatoloq və ortopedlərinin beynəlxalq konqresinin açılışı olub






**Sentyabrın 4-də Bakıda türkcə danışan ölkələrin travmatoloq və ortopedlərinin beynəlxalq konqresinin açılış mərasimi keçirilib.**

Azərbaycan Ortopediya Cəmiyyəti (AOC), Türkiyə Travmatoloq və Ortopedlər Birlikləri Dərnəyi (TOTBİD) və Türkcə Danışan Ölkələr Travmatoloq və Ortopedlər Cəmiyyətinin (TÜRKOT) birgə təşkilatçılığı ilə keçirilən konqresin əsas məqsədi türkdilli ölkələr arasında səhiyyə sahəsində elmi-praktik əməkdaşlığın inkişaf etdirilməsi, travmatologiya və ortopediya sahəsində müasir diaqnostika və müalicə metodlarının müzakirəsi, qabaqcıl təcrübələrin paylaşılması, eləcə də ortaq elmi təşəbbüslərin təşviq edilməsidir.

AZƏRTAC xəbər verir ki, konqresdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kiprlə yanaşı, ABŞ, Almaniya, Rusiya, Şimali Makedoniya, Yunanıstan və Bolqarıstandan türkəsilli nümayəndələr iştirak edirlər.

Konqresin Azərbaycanda keçirilməsi ölkəmizin səhiyyə və elm sahəsində beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə, regional əməkdaşlığın genişlənməsinə və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcək.

Tədbirin açılış mərasimində çıxış edən Azərbaycan Ortopediya Cəmiyyətinin sədri Aydın Qəhrəmanov bildirib ki, Bakıda Türk dünyası travmatoloq və ortopedlərinin konqresinin keçirilməsi Azərbaycan travmatoloq və ortopedlər ailəsi üçün əlamətdar hadisədir. O, konqresin türk dünyası mütəxəssislərinin həmrəyliyinin və ortaq elmi baxışının göstəricisi olduğunu qeyd edərək, tədbirin Azərbaycanda keçirilməsinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

A.Qəhrəmanov Azərbaycan səhiyyəsinin son illərdə mühüm inkişaf yolu keçdiyini vurğulayaraq, beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin bu prosesdə xüsusi əhəmiyyət daşıdığını bildirib. Onun sözlərinə görə, travmatologiya və ortopediya səhiyyənin ən dinamik inkişaf edən sahələrindəndir. Robotik cərrahiyyə, süni intellekt və yeni cərrahi üsullar kimi innovasiyalar müalicənin keyfiyyətinin yüksəldilməsinə imkan verir.

Cəmiyyət sədri qeyd edib ki, konqres çərçivəsində yeni texnologiya və müalicə üsullarının paylaşılması ilə yanaşı, gənc travmatoloq-ortopedlərin yetişdirilməsinə də xüsusi diqqət yetirilir. O, tədbirin türk dünyası mütəxəssisləri arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə, həmçinin yeni elmi-tədqiqat layihələrinin başlanmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov türk dünyasının tanınmış mütəxəssislərinin Azərbaycanda bir araya gəlməsinin müasir ortopediya və travmatologiyanın aktual problemlərinin müzakirəsi və bu sahələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Ə.Əmiraslanov qeyd edib ki, son illər Türk Dövlətləri Təşkilatı çərçivəsində səhiyyənin müxtəlif istiqamətləri üzrə keçirilən konqreslər Azərbaycan tibb ictimaiyyəti üçün mühüm hadisələrdir.

O bildirib ki, konqresdə türk dünyası, eləcə də dünya miqyasında tanınan yüksəkixtisaslı mütəxəssislərin iştirakı xüsusi əhəmiyyət daşıyır. Onların azərbaycanlı həmkarları ilə bilik və təcrübə mübadiləsi aparması, müasir ortopediya və travmatologiyanın qarşısında duran problemləri müzakirə etməsi bu sahələrin ölkəmizdə daha sürətli inkişafına təkan verəcək.

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün türk dünyasının müxtəlif ölkələrindən ortopediya və travmatologiya üzrə mütəxəssislərin Bakıda bir araya gəlməsinin həm peşəkar əməkdaşlığın, həm də türk dünyasında həmrəyliyin mühüm göstəricisi olduğunu diqqətə çatdırıb.

Səfir bildirib ki, türk dünyasının müxtəlif şəhərlərindən gələn həkimlərin belə tədbirlərdə bir araya gəlməsi təcrübə mübadiləsi, elmi əməkdaşlıq və peşəkar əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, bu cür təşəbbüslər Türk Dövlətləri Təşkilatının 2040-cı il Vizyonunda nəzərdə tutulan həmrəylik, təcrübə mübadiləsi və əməkdaşlıq məqsədlərinə də xidmət edir.

Azərbaycanın türk dünyasında xüsusi yerə malik olduğunu vurğulayan Birol Akgün Bakının da bu baxımdan mühüm mərkəzlərdən birinə çevrildiyini diqqətə çatdırıb.

Digər çıxış edənlər konqresin həm Azərbaycan səhiyyəsi, həm də türk dünyasının ortopediya və travmatologiya sahəsində əməkdaşlığı üçün müstəsna əhəmiyyət daşıdığını vurğulayıblar. Bildirilib ki, türk dünyasının müxtəlif ölkələrindən olan mütəxəssislərin bir araya gəlməsi ortaq elmi inkişafa və peşəkar əlaqələrin möhkəmlənməsinə töhfə verir.

Tədbir çərçivəsində bir sıra türkdilli ölkələrin müvafiq təşkilatları arasında əməkdaşlığa dair memorandum da imzalanıb.

Konqres panel müzakirələrlə davam edib.

Türkcə danışan ölkələrin travmatoloq və ortopedlərinin beynəlxalq konqresi öz işini sentyabrın 5-də yekunlaşdıracaq.



**Azərbaycan ilə İtaliya arasında qurulan əlaqələr etibarlı və davamlı strateji tərəfdaşlığın bariz nümunəsidir. Zəngin tarixi köklərə və qarşılıqlı maraqlara söykənən bu əməkdaşlıq, sadəcə, iki dövlətin diplomatik təmasları ilə məhdudlaşmır, həm də regional və qlobal səviyyədə mühüm geosiyasi rol oynayır. Bakı ilə Roma arasında illərdir davam edən səmimi dialoq bu gün iqtisadi və strateji müstəvidə özünün ən yüksək mərhələsini yaşayır. İtaliyanın Azərbaycan üçün birnömrəli ticarət tərəfdaşı olması, eləcə də Azərbaycan qazının və neftinin İtaliyanın enerji təhlükəsizliyində həlledici rol oynaması bu münasibətlərin əsasını təşkil edir. Liderlərin şəxsi dostluğu, siyasi iradəsi və açıq dialoqu isə iki ölkə arasındakı çoxşaxəli əlaqələrin dinamik inkişafını təmin edən əsas məqamdır.**

# Azərbaycan-İtaliya münasibətləri etimad və strateji tərəfdaşlıq üzərində qurulub

## Qarşılıqlı faydalı əməkdaşlıq bundan sonra da dərinləşəcək

Bu günlərdə Prezident İlham Əliyevin İtaliyanın Baş naziri Ciorcia Melonini vəzifədəki tarixi nailiyyəti münasibətilə təbrik etməsi tərəflər arasında yüksək siyasi etimadın göstəricisidir.

Dövlətimizin başçısı "X" hesabında paylaşılan təbrikində vurğulayıb: "İtaliya Respublikasının tarixində ən uzun müddət Baş nazir vəzifəsində çalışan şəxs olması münasibətilə İtaliyanın Baş naziri Ciorcia Meloniyə səmimi təbriklərimi çatdırıram.

Bu tarixi nailiyyət onun güclü liderliyini, siyasi qətiyyətini və İtaliya xalqının ona olan etimadını əks etdirir".

Təbrikdə "Baş nazir Meloninin Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsində şəxsi rolunu və dəyərli töhfəsini yüksək qiymətləndirirəm.

Əminəm ki, dostluğumuz və qarşılıqlı faydalı əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da dərinləşəcək və genişlənəcək", - deyə qeyd olunub. Ölkəmizin rəhbərinin bu təbriki də göstərir ki, Azərbaycan və İtaliya təkcə iqtisadi maraqları bölüşən tərəfdaşlar deyil, həm də beynəlxalq müstəvidə bir-birinin suverenliyinə və strateji roluna hörmətlə yanaşan yaxın dost ölkələrdir.

İtaliya - Azərbaycan dostluğunun təməli 1992-ci ildə diplomatik əlaqələrin qurulması ilə qoyulub. 1997-ci ildə İtaliyanın Azərbaycanda, 2003-cü ildə Azərbaycanın İtaliyada səfirliyi açılıb. Ümummilli Lider Heydər Əliyevin 1997-ci ildə İtaliyaya rəsmi səfəri isə iki ölkə arasında münasibətləri keyfiyyətcə yeni müstəviyə daşıyıb. Sözügedən tarixdə Ulu Öndərin İtaliyaya rəsmi səfəri çərçivəsində siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanıb. İki ölkə arasında 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanıb.

Yüksələn dinamika ilə inkişaf edən çoxşaxəli əlaqələr və 2020-ci ilin İtaliyada "Azərbaycan ili" elan olunması ölkəmizə bəslənilən böyük rəğbətin, yüksək etimadın təzahürü oldu. Bu həm də iki xalq arasındakı mədəni və mənəvi bağların dərinliyini nümayiş etdirdi.

Prezident İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" iki ölkə arasında ən yüksəksəviyyəli sənəd oldu. Bəyannamədə beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək göstərilməsi haqqında müddəanın nəzərdə tutulması İtaliya və Azərbaycanın yaxın dost, müttəfiq ölkələr olduğunun təsdiqi oldu. Bu sənəddə İtaliya və Azərbaycanın bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşdığı və bunu dəstəklədiyi vurğulanıb.

## Qarşılıqlı etimad

İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır. Təkcə ötən il iki ölkə arasındakı ticarət dövriyyəsi 12 milyard dollara çatıb. Azərbaycan İtaliyanın həm neft, həm də təbii qaz təchizatında əsas tərəfdaşlardan biridir. TAP layihəsi vasitəsilə çatdırılan qaz Avropanın, xüsusən də İtaliyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilib.

Lakin tərəfdaşlıq təkcə neft və qaz sahəsi ilə məhdudlaşmır. İşğaldan azad edilmiş torpaqlarda bərpa və quruculuq işlərində də bu özünü göstərir. İtaliya şirkətləri Qarabağ və Şərqi Zəngəzurda 23-dən çox mühüm layihə icra edərək bu ərazilərdə yenidənqurma işlərində ön sıralarda gedir.

Bakıda açılan İtaliya-Azərbaycan Universiteti isə artıq 500-dən çox tələbəyə qapı açıb və iki ölkə arasında canlı mədəniyyət körpüsü rolunu oynayır.

Cari ilin mayında Baş nazir Ciorcia Meloninin regiona səfəri zamanı Ermənistandakı proqramını bitirən kimi dərhal Azərbaycana gəlməsi də rəsmi Bakıya olan xüsusi diqqətin təzahürü idi.

Mayın 4-də Prezident İlham Əliyev İtaliyanın Baş naziri Ciorcia Meloni ilə mətbuata bəyanatında bu jesti xüsusi qeyd edərək deyib: "Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür".

Öz növbəsində mətbuata bəyanatında İtaliya Baş naziri vurğulayıb ki, İtaliya Azərbaycanla həyata keçirdiyi mühüm tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq kimi görür və bundan sonra da uzunmüddətli olmasını istəyir.

Həmçinin Bakıda Prezident İlham Əliyevin Ciorcia Meloni ilə geniş tərkibdə görüşü zamanı Baş nazir "Fikrimizcə, Azərbaycan bizim beynəlxalq müstəvidə çətin vəziyyətdə olmağımıza baxmayaraq, strateji tərəfdaşımızdır. Eyni zamanda Azərbaycan körpü rolunu oynayır. Biz bu körpünün rolunu elan etmək istəyirik. Bu körpü buradan Aralıq dənizi regionuna qədər çox uzun bir körpü ola bilər", - deyə bəyan edib.

Bütün bunların fonunda da görünür ki, Bakı və Roma arasındakı münasibətlər formal diplomatik çərçivələri çoxdan aşıb və real nəticələrə söykənən strateji tərəfdaşlıq modelinə çevrilib. İki ölkə rəhbərinin səmimi dialoqu və razılaşdırılan yeni layihələr göstərir ki, bu tərəfdaşlıq dinamik şəkildə inkişaf edir və energetikadan müdafiə sənayesinə, işğaldan azad edilmiş torpaqların bərpasından təhsilə qədər geniş bir sahəni əhatə edir.

Geosiyasi üstünlüklər uğrunda güc savaşlarının getdiyi, etibarlı tərəfdaşların sayının azaldığı müasir dünyada Azərbaycan və İtaliyanın dostluğa dayanan münasibətləri hər iki dövlətin uzaqgörən siyasətinin nəticəsidir.

Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, bu dostluq və qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da eyni inamla davam etdiriləcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Seneqal Azərbaycanın əmək və dövlət xidmətləri sahəsində təcrübəsini öyrənməkdə maraqlıdır"

**"Seneqal Azərbaycanın əmək və dövlət xidmətləri sahəsində tətbiq etdiyi qabaqcıl təcrübədən yararlanmaqda maraqlıdır".**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında **Seneqalın Dövlət Qulluğu, Əmək və Dövlət Xidmətinin İslahatı naziri Mamadou Lamine DİANTE** deyib.

Səfər çərçivəsində keçirilən görüşlərin Seneqal nümayəndə heyəti üçün çox faydalı olduğunu bildirən nazir əlavə edib: "Əmək və əhalinin sosial müdafiəsi naziri ilə görüşdük. İlk növbədə ziyarət etdiyimiz DOST Mərkəzindən çox təsirləndik. Bu təcrübəni öz ölkəmizdə də tətbiq etmək arzusundayıq".

Diante azərbaycanlı həmkarı ilə keçirilən görüş zamanı çox faydalı fikir mübadiləsinin aparıldığını vurğulayıb. Bildirib ki, əmək sahəsində Seneqalın Azərbaycandan öyrənə biləcəyi çox şey var. "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səviyyəsində demək olar ki, eyni idarələrin olduğunu bilirik, lakin həyata keçirilən işlər baxımından Azərbaycan Seneqalı xeyli qabaqlayır. Bunun sübutu kimi yalnız prosedurların rəqəmsallaşdırılmasını qeyd edə bilərəm. Bu gün bizim idarələrə daxil olduqda kağız müqavilələrdən ibarət qalaq-qalaq sənədlər görürsünüz. Azərbaycanda isə bizə başa saldılar ki, bütün prosedurlar rəqəmsallaşdırılıb. Buna görə də biz öz ölkəmizdə bu səviyyəyə çatmaq üçün Azərbaycanın dəstəyinə ümid edirik", - deyə nazir bildirib.

Lamine Diante səfər çərçivəsində "ASAN xidmət" mərkəzini də ziyarət etdiklərini və Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri ilə işgüzar görüş keçirdiklərini diqqətə çatdırıb: "Bu mərkəzdən xüsusilə təsirləndik və hazırda bu təcrübəni öz ölkəmizdə də tətbiq etmək arzusundayıq".

Nazir bildirib ki, Seneqal "ərazi inkişaf qütbləri" adlandırılan 8 inkişaf qütbünə bölünüb. Onun sözlərinə görə, ölkəsinin hər bir ərazi inkişaf qütbündə Azərbaycandakı "ASAN xidmət"ə bənzər mərkəzlərin yaradılması nəzərdə tutulur.

O, Azərbaycanla keçirilən görüşlərin Seneqal üçün zəngin təcrübə olduğunu qeyd edib: "Keçirdiyimiz bütün görüşlər bizim üçün çox zəngin təcrübə oldu. Burada daha uzun müddət qalmaq istərdik. Lakin müəyyən öhdəliklərimiz var və təəssüf ki, səfərimiz yalnız 48 saat davam edəcək".

# "Orta dəhliz yeni geoiqtisadi arxitekturanı təcəssüm etdirir"

**"Ankaranın ŞƏT+ formatına yanaşmasını yalnız diplomatik yaxınlaşma kimi qiymətləndirmək düzgün olmazdı. Türkiyənin nöqteyi-nəzərindən əsas məqsəd Avrasiyada yenidən qurulan nəqliyyat, ticarət, enerji və təhlükəsizlik şəbəkələrində, sadəcə, yer tutmaq deyil, həm də mərkəzi əlaqələndirici halqaya və qərar qəbul edən ölkəyə çevrilməkdir".**

Orta dəhliz bu strategiyanın əsas dayağıdır. Çindən Mərkəzi Asiyaya, Xəzər dənizi üzərindən Azərbaycana və Türkiyəyə, oradan isə Avropaya uzanan marşrut artıq, sadəcə, alternativ logistika yolu deyil, yeni geoiqtisadi quruluşu təcəssüm etdirir. ŞƏT+ formatı Ankaraya bu marşrutu "Bir kəmər, bir yol" təşəbbüsü, regional ticarət şəbəkələri və təhlükəsizlik mexanizmləri ilə daha sıx əlaqələndirmək imkanı da verir.

Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı **"Miras Global" təşkilatının baş analitiki, beynəlxalq təhlükəsizlik və regional məsələlər üzrə ekspert Ertürk ERYILMAZ** deyib.

Ekspert qeyd edib ki, Türkiyənin məqsədi tranzit ölkə rolu ilə məhdudlaşmır.

"O logistika mərkəzləri, limanlar, dəmir yolları, gömrük sistemləri, maliyyələşdirmə mexanizmləri və istehsal zəncirləri əsasında formalaşacaq iqtisadi ekosistemin mərkəzlərindən birinə çevrilməyə çalışır. Buna görə də indi məsələ yalnız "yük hansı ölkədən keçəcək?" deyil, həm də "Avrasiyanın yeni iqtisadi mərkəzi harada formalaşacaq?" sualından ibarətdir", - deyə Ertürk Eryılmaz izah edib.

# Həkim əməyinə verilən dəyər insan sağlamlığına xidmət edir

**Azərbaycanın səhiyyə sistemində yeni islahatlar həyata keçirilir və tibb işçilərinin əməkhaqları artırılır. Bütün bunlar ictimaiyyət, xüsusilə də səhiyyə işçiləri tərəfindən böyük rəğbət və məmnunluqla qarşılanır. On minlərlə tibb işçisinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edən əməkhaqqı artımı, eyni zamanda onların əməyinə verilən yüksək qiymətin əyani təzahürüdür. Xüsusilə ilkin səhiyyə və reanimasiya xidmətlərində çalışan mütəxəssislər bu qərarın gündəlik fəaliyyətlərinə əlavə stimul verəcəyini vurğulayırlar.**



**Sumqayıt Uşaq Xəstəxanasının poliklinika şöbəsinin müdiri Könül MƏMMƏDLİ** qəzetimizə bildirib ki, yeni əməkhaqqı sistemi ilkin və ambulator səhiyyənin gücləndirilməsinə mühüm stimul verəcək: "Tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı həyata keçirilən yeni islahatı səhiyyə sistemimizin inkişafı baxımından mühüm və vaxtında atılmış addım hesab edirəm. Bu qərar minlərlə tibb işçisinin sosial rifahına birbaşa təsir etməklə yanaşı, səhiyyədə insan kapitalının qorunmasına və peşəkar kadrların motivasiyasının yüksəldilməsinə xidmət edir".

Könül Məmmədli qeyd edib ki, poliklinika xidmətində çalışan tibb işçiləri əhalinin səhiyyə sistemi ilə ilkin təmasının əsas iştirakçılarıdır. Uşaqların profilaktik müayinəsi, xəstəliklərin erkən aşkarlanması, dinamik müşahidə, valideynlərin maarifləndirilməsi və zəruri hallarda ixtisaslaşdırılmış tibbi xidmətə yönləndirilməsi gündəlik fəaliyyətimizin mühüm hissəsidir. Buna görə ambulator xidmət göstərən həkimlərin əməyinin yeni əməkhaqqı mexanizmində xüsusi nəzərə alınmasını olduqca əhəmiyyətli hesab edirik. Yeni yanaşmanın üstün cəhətlərindən biri əməkhaqqının yalnız vəzifəyə görə deyil, eyni zamanda iş yükü, fəaliyyət və keyfiyyət göstəriciləri nəzərə alınmaqla formalaşdırılmasıdır. Bu, tibb işçisinin əməyinin daha obyektiv qiymətləndirilməsinə, sağlam peşəkar rəqabətin və məsuliyyət hissinin güclənməsinə imkan yaradacaq.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin dəstəyi ilə reallaşan bu qərarın əhəmiyyətindən danışan Könül Məmmədli deyib ki, Azərbaycanda səhiyyə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. "Biz bu qayğını yalnız əməkhaqqı artımı kimi deyil, həm də üzərimizə qoyulan daha böyük etimad və məsuliyyət kimi qəbul edirik. Əsas vəzifəmiz bu etimadı vətəndaşlara, xüsusilə uşaqlarımıza göstərilən tibbi xidmətin keyfiyyətini daha da yüksəltməklə doğrultmaqdır. Bu mühüm qərara görə, dövlətimizin başçısı Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya kollektivimiz adından təşəkkürümüzü bildiririk", - deyə həkim qeyd edib.



**Sumqayıt Uşaq Xəstəxanasının Anesteziologiya-reanimatologiya şöbəsinin müdiri həkim-reanimatoloq Səbinə HACIYEVA** isə bildirib ki, tibb işçisinin əməyinin qiymətləndirilməsi həm də insan həyatına verilən dəyərdir: "Tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı qəbul edilən qərarı böyük məmnunluq və minnətdarlıq hissi ilə qarşıladıq. Bu təşəbbüs səhiyyə işçilərinin sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, onların son dərəcə məsuliyyətli əməyinə dövlət səviyyəsində verilən yüksək qiymətin ifadəsidir. Anestezioloq-reanimatoloq kimi fəaliyyət göstərən həkimlər üçün bu qərarın xüsusi mənəvi əhəmiyyəti var. Reanimasiya xidməti gecə-gündüz fasiləsiz fəaliyyət, yüksək peşəkarlıq, operativ qərarvermə və böyük məsuliyyət tələb edir. Xüsusilə uşaqların həyatının xilas edilməsi uğrunda aparılan mübarizədə bəzən saniyələr belə həlledici olur. Belə bir sahədə çalışan həkimin əməyinin və məsuliyyətinin əməkhaqqı sistemində daha dolğun nəzərə alınması bizə əlavə stimul verir".

Səbinə Hacıyeva qeyd edib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması ilə bağlı təşəbbüsünün Prezident İlham Əliyev tərəfindən dəstəklənməsi səhiyyəyə və bu sahədə çalışan insanlara göstərilən diqqətin növbəti nümunəsidir: "Əməkhaqlarının artırılması yalnız sosial məsələ deyil. Bu, həkimin peşəsinə bağlılığını gücləndirən, məsuliyyətini və motivasiyasını yüksəldən, nəticə etibarilə isə tibbi xidmətin keyfiyyətinə müsbət təsir göstərən mühüm addımdır. Biz tibb işçiləri göstərilən bu diqqət və qayğını gündəlik fəaliyyətimizdə daha böyük məsuliyyətlə, pasiyentlərimizə daha yüksək səviyyədə xidmət göstərməklə doğrultmağa çalışacağıq. Dövlətimizin insan sağlamlığına və səhiyyə işçilərinin əməyinə verdiyi yüksək dəyərə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk".

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# "Tibb işçilərinin sosial təminatının gücləndirilməsini məmnunluqla qarşılayırıq"

## TƏBİB sistemində 72 mindən çox tibb işçisini əhatə edən yeni əməkhaqqı islahatı sentyabrın 1-dən tətbiq olunur

**Səhiyyənin inkişafı yalnız müasir tibb müəssisələrinin yaradılması, yeni texnologiyaların tətbiqi və xidmət imkanlarının genişləndirilməsi ilə məhdudlaşmır. Sistemin əsas dayağı olan tibb işçilərinin əməyinin layiqincə qiymətləndirilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi və peşəkar fəaliyyət üçün daha əlverişli şəraitin yaradılması da bu inkişafın mühüm tərkib hissəsidir. Azərbaycanda son illər səhiyyə sahəsində aparılan islahatlarda məhz insan amilinə xüsusi diqqət yetirilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır.**

Tibb işçilərinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində növbəti mühüm addım TƏBİB sistemində çalışanların əməkhaqlarının artırılmasıdır. 2026-cı il sentyabrın 1-dən tətbiq olunan yeni qaydalar TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72212 tibb işçisini əhatə edir. Bununla da on minlərlə səhiyyə əməkdaşının gəlirlərinin artırılması və əməyin qiymətləndirilməsində daha çevik mexanizmlərin tətbiqi nəzərdə tutulur. Yeni sistemin mühüm xüsusiyyətlərindən biri əməkhaqqı artımlarının diferensial yanaşma əsasında müəyyənləşdirilməsidir. Belə ki, artımlar zamanı tibb işçisinin vəzifəsi, ixtisası, iş yükü və fəaliyyət göstəriciləri ilə yanaşı, regionlarda mövcud kadr təminatı da nəzərə alınacaq. Bu yanaşma görülən işin həcmi və xüsusiyyətləri ilə əməkhaqqı arasında daha çevik əlaqənin yaradılmasına xidmət edir.

İslahat xüsusilə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətlərində çalışanlar, həmçinin regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə həkimlər üçün əhəmiyyətlidir. Bu istiqamətlərdə çalışan mütəxəssislər üçün nəzərdə tutulan artımlar həm onların əməyinin stimullaşdırılması, həm də səhiyyə sistemində mövcud kadr ehtiyaclarının qarşılanması baxımından mühüm rol oynayacaq.



**Lökbatan Tibb Mərkəzinin Təcili Təxirəsalınmaz Tibbi Yardım həkimi Mehman BAĞIROV** bildirib ki, əməkhaqlarının artırılması ilə bağlı verilən qərara görə, cənab Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, eləcə də aidiyyəti qurumların rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk. Tibb işçilərinin əməyinə verilən yüksək dəyərin növbəti göstəricisi olan bu mühüm addım maddi rifahımızın daha da yaxşılaşdırılmasına xidmət edir. Əməkhaqlarının artırılması eyni zamanda tibb işçilərinin məsuliyyətli və şərəfli fəaliyyətinə göstərilən diqqət və qayğının nümunəsidir. Biz tibb işçilərinə göstərilən davamlı dövlət qayğısını yüksək qiymətləndirir, bu təşəbbüsün həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkürümüzü ifadə edirik".



Həkimlərin əməyinə verilən yüksək qiymətə, onların üzərinə düşən böyük məsuliyyətin nəzərə alınmasına və əməkhaqlarının artırılması ilə bağlı qəbul edilən qərara görə ölkə rəhbərliyinə təşəkkür edən **həkim Ləman ƏLİYEVA** deyib ki, bu dəstəyin həkimlərin əmək fəaliyyətinin daha da yaxşılaşdırılmasına, peşəkar bilik və bacarıqlarının inkişaf etdirilməsinə, eyni zamanda tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə əlavə stimul verəcəyinə əmindir. "Bu dəstək bizi bundan sonra da üzərimizə düşən vəzifələri daha böyük məsuliyyət və peşəkarlıqla yerinə yetirməyə ruhlandırır", - deyə mütəxəssis bildirib.



**Həkim Şəfa ƏLİYEVA** isə bildirib ki, əməkhaqlarının artırılması səhiyyə sahəsində çalışan insanların gərgin və məsuliyyətli əməyinə göstərilən diqqətin, onların fəaliyyətinə verilən dəyərin mühüm göstəricisidir: "Tibb işçilərinin sosial təminatının gücləndirilməsi istiqamətində atılan bu addımı böyük məmnunluqla qarşılayırıq. Hesab edirik ki, tibb işçilərinin rifahının yaxşılaşdırılmasına yönələn belə təşəbbüslər peşə fəaliyyətinə də müsbət təsir göstərir. Göstərilən diqqət həkimlər üçün həm mənəvi dəstək, həm də bilik və bacarıqlarını daha da təkmilləşdirmək, pasiyentlərə yüksək səviyyədə xidmət göstərmək üçün əlavə motivasiyadır. Bizə göstərilən etimadı bundan sonra da məsuliyyətli fəaliyyətimiz, peşəkarlığımız və insan sağlamlığının qorunmasına layiqli töhfəmizlə doğrultmağa çalışacağıq. Tibb işçilərinə göstərilən davamlı diqqət və qayğıya görə təşəkkürümüzü ifadə edirik".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN





# Azərbaycan-ATƏT əməkdaşlığında yeni səhifə açılır

**Bəzən beynəlxalq münasibətlərdə bir görüş, sadəcə, diplomatik təmas çərçivəsində qalmır, bütöv bir siyasi mərhələnin mahiyyətini ifadə edir. Sentyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin ATƏT-in Parlament Assambleyasının prezidenti Pere Joan Ponsu qəbul etməsi məhz belə görüşlərdəndir. Bu görüşdə səslənən fikirlər Azərbaycan-ATƏT münasibətlərinin yeni reallıqlar fonunda yenidən nəzərdən keçirilməsinin vacibliyini ortaya qoydu.**

ATƏT-in Parlament Assambleyasının prezidenti ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu, regionda davamlı sülhün təmin edilməsi üçün imkan yarandığını bildirərək dövlətimizin başçısını Azərbaycan-Ermənistan sülh gündəliyində əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdi. İlham Əliyevin buna cavabı isə Azərbaycanın ATƏT-lə münasibətlərinin tarixini, keçmiş münaqişənin həlli prosesində yaşanan reallıqları və bu gün yaranmış yeni vəziyyəti anlamaq baxımından mühüm siyasi məna daşıdı.

Aydın məsələdir ki, Azərbaycan ATƏT məkanına təsadüfi gəlməyib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra - 30 yanvar 1992-ci ildə ovaxtkı Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə üzv qəbul olunub. Bu, Azərbaycanın daxil olduğu ilk Avropa təşkilatı idi. Həmin ilin iyulunda Azərbaycan Helsinki Zirvə toplantısında iştirak edərək təşkilatın sənədlərini imzaladı. Sonradan ATƏM-in ATƏT-ə çevrilməsi ilə Azərbaycan da bu təşkilatın tamhüquqlu iştirakçısı kimi fəaliyyətini davam etdirdi. Bu münasibətlərin başlanğıcında Azərbaycanın ATƏT-dən gözləntisi aydın idi: Avropanın təhlükəsizlik arxitekturasının mühüm elementlərindən biri olan təşkilat beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanaraq Azərbaycan-Ermənistan münaqişəsinin ədalətli həllinə töhfə verməli idi. Çünki Helsinki Yekun Aktında təsbit olunmuş suverenliyə hörmət, dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və mübahisələrin sülh yolu ilə həlli kimi prinsiplər Azərbaycanın mövqeyinin hüquqi-siyasi əsaslarını təşkil edirdi.

Azərbaycan-Ermənistan münaqişəsinin beynəlxalq vasitəçilik yolu ilə həlli məqsədilə 1992-ci ildə ATƏM çərçivəsində Minsk prosesi başladı. Həmin il Minsk qrupunun yaradılması ilə danışıqlar üçün institusional mexanizm formalaşdırıldı. 1994-cü il Budapeşt Sammitində isə Minsk qrupu təsisat kimi rəsmiləşdirildi. Azərbaycan uzun illər bu mexanizmə böyük ümid bəslədi. Çünki söhbət yalnız bir münaqişənin tənzimlənməsindən deyil, beynəlxalq hüququn pozulmuş normalarının bərpasından gedirdi. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələri qəbul etmişdi. Lakin bu sənədlərin icrası təmin olunmurdu. Beləliklə, illər keçdikcə ciddi bir paradoks meydana çıxdı: Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq hüququn prinsiplərini dəstəkləyən çoxsaylı sənədlər mövcud olsa da, həmin sənədlərin reallaşdırılması üçün effektiv mexanizm işləmirdi. Minsk qrupunun fəaliyyəti də nəticə etibarilə bu paradoksu aradan qaldıra bilmədi. Təsadüfi deyil ki, Prezident İlham Əliyev sentyabrın 3-də ATƏT PA prezidenti ilə görüşdə xüsusi olaraq vurğuladı ki, münaqişənin həllinə məsul olan Minsk qrupu təxminən 30 il ərzində danışıqlar prosesində hər hansı nəticəyə nail olmadı, yaxud nail olmaq istəmədi. Bu, Azərbaycanın ATƏT-ə münasibətinin dəyişməsi deyil, tarixi reallığın siyasi qiymətləndirilməsi idi. Azərbaycan ATƏT-in özünü deyil, konkret olaraq nəticə verməyən vasitəçilik modelinin tənqid edirdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Cənubi Qafqazın geosiyasi mənzərəsini kökündən dəyişdi. Azərbaycan hərbi uğurları nəticəsində işğal altında olan ərazilərin böyük hissəsi azad edildi. 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərindən sonra isə Azərbaycan öz ərazisində dövlət suverenliyini tam bərpa etdi. Beləliklə, 30 ilə yaxın müddətdə beynəlxalq vasitəçilik mexanizmlərinin çözə bilmədiyi problem Azərbaycanın hərbi-siyasi gücü və diplomatik iradəsi nəticəsində həll olundu.

Azərbaycan münaqişəyə son qoymaqla yalnız öz ərazi bütövlüyünü və suverenliyini təmin etmədi, həm də Cənubi Qafqazda yeni sülh reallığının əsasını qoydu. Bu gün artıq söhbət postmünaqişə dövründə davamlı sülhün, regional əməkdaşlığın və qarşılıqlı etimadın necə qurulmasından gedir.

Prezident İlham Əliyevin görüş zamanı diqqət yetirdiyi məsələlərdən biri də ATƏT PA-nın bütün ATƏT məkanına balanslı münasibət nümayiş etdirməsinin əhəmiyyətinə diqqət yetirməsinin vacibliyidir. Bu təsadüfi deyil. Azərbaycan üçün beynəlxalq təşkilatların əsas dəyəri beynəlxalq hüququn prinsiplərinə eyni meyarla yanaşmasındadır. Əgər söhbət suverenlikdən gedirsə, bu prinsip bütün dövlətlərə münasibətdə eyni olmalıdır. Əgər ərazi bütövlüyü beynəlxalq hüququn fundamental normasıdırsa, o, siyasi konyunkturadan asılı olaraq dəyişməməlidir. Əgər sülh məqsəddirsə, onun əsasında qarşılıqlı hörmət dayanmalıdır. Azərbaycanın ATƏT PA-dan gözləntisi də məhz belə bir yanaşmadır.

Azərbaycanın Avropa ilə münasibətləri isə yalnız siyasi və parlamentlərarası dialoqla məhdudlaşmır. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində tərəfdaşlardan birinə çevrilib. Avropa İttifaqının məlumatına görə, Azərbaycan qazının "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya tədarükü 2021-2024-cü illər arasında 40 faizdən çox artıb. 2026-cı ilin əvvəlindən Azərbaycan qazının Almaniya və Avstriyaya ixracı da başlayıb. Bu fakt Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolunu nümayiş etdirir.

2026-cı ilin martında Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" üzrə Məşvərət şuralarının toplantıları da Azərbaycan-Avropa enerji tərəfdaşlığının yeni istiqamətlərini göstərdi. Toplantıda təbii qazla yanaşı, bərpaolunan enerji, enerji səmərəliliyi, hidrogen, elektrik bağlantıları və "yaşıl enerji" əməkdaşlığı müzakirə olunub. İyul ayında Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri zamanı da enerji tərəfdaşlığının bundan sonra daha da dərinləşdirilməsi, regional bağlantıların inkişafı və Azərbaycanla Avropa İttifaqı arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məsələləri gündəmə gətirilib. Avropa Komissiyası Azərbaycanı Avropa üçün etibarlı enerji tərəfdaşı kimi qiymətləndirib. Bütün bunlar Azərbaycanın Avropa ilə münasibətlərinin yalnız enerji ixrac edən ölkə ilə Avropa arasında əlaqələrdən ibarət olmadığını göstərir.

Bu mənzərədə ATƏT Parlament Assambleyasının prezidentinin Bakıya səfəri və Prezident İlham Əliyevlə görüşü xüsusi siyasi məna qazanır. Başqa sözlə, Azərbaycan ATƏT-dən uzaqlaşmır, əksinə, təşkilatın fundamental prinsiplərinə daha ciddi qalaraq daha obyektiv, balanslı və real təhlükəsizlik çağırışlarına uyğun fəaliyyət göstərməsini istəyir. Azərbaycanın mövqeyi aydındır: keçmişdə baş vermiş uğursuzluqlar gələcək əməkdaşlığın qarşısını almamalıdır, əksinə, həmin təcrübə yeni münasibətlər üçün dərsə çevrilməlidir. Minsk qrupunun tarixdə qalan uğursuz vasitəçilik modeli ilə ATƏT-in Parlament Assambleyası çərçivəsində bu gün davam edən parlament dialoqunu eyniləşdirmək doğru olmaz. Çünki zaman dəyişib, region dəyişib, Azərbaycanın özü dəyişib. Bu gün Azərbaycan artıq münaqişənin həllini gözləyən tərəf deyil, öz ərazi bütövlüyünü və dövlət suverenliyini təmin edən, regionda yeni əməkdaşlıq imkanları yaradan və Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkədir. İndi əsas məsələ bu yeni reallığın beynəlxalq institutlar tərəfindən düzgün dərk edilməsidir. ATƏT qarşısında da yeni imkan yaranıb. Təşkilatın parlament ölçüsündə dialoqun inkişaf etdirilməsi, regionda sülhün möhkəmləndirilməsi, mina təhlükəsinin aradan qaldırılması, nəqliyyat və iqtisadi bağlantıların təşviqi kimi istiqamətlərdə Azərbaycanla əməkdaşlığın genişləndirilməsi təşkilatın nüfuzuna, həm də bütövlükdə Avropanın təhlükəsizlik maraqlarına xidmət edə bilər. Sentyabrın 3-də Bakıda baş tutan görüşün əsas mesajı da məhz bu idi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Revanşizmə xidmət edən hər bir təxribat iflasa məhkumdur

**Otuzillik işğala son qoyan, öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən Azərbaycan bölgədə sülh və sabitliyin, regional əməkdaşlığın əsas təşəbbüskarı kimi çıxış edir. Məlum olduğu kimi, 2025-ci ilin avqustunda keçirilən Vaşinqton Sammitində sülh sazişinin mətni paraflanıb, Birgə Bəyannamə imzalanıb və iki ölkə arasındakı münasibətlərdə prinsipial olaraq yeni mərhələnin əsası qoyulub. Rəsmi İrəvan da sülh quruculuğuna üstünlük verdiyini, bu prosesə mane olan revanşistləri neytrallaşdırmaq istiqamətində addımlar atacağını dəfələrlə bəyan edib. Ancaq bu konstruktiv mühitə rəğmən, xaricdəki erməni diasporu və lobbi təşkilatları sülh gündəliyini pozmaq, çirkin ambisiyalarını reallaşdırmaq məqsədilə təxribatlara cəhd edirlər.**



Fransadakı Erməni Təşkilatları Koordinasiya Şurası (CCAF) tərəfindən avqustun 31-dən sentyabrın 4-dək Paris meriyasının qarşısında təşkil olunmuş aksiya da erməni diasporunun və anti-Azərbaycan dairələrinin növbəti uğursuz cəhdindən başqa bir şey deyil. Bakıda ağır cinayətlərə görə məhkum edilmiş separatçıları, xunta rəhbərlərini və terrorçuları "siyasi məhbus" kimi qələmə verməyə çalışan erməni lobbisi Avropa ictimaiyyətinin rəyini manipulyasiya etməyə, ölkəmizə qarşı süni informasiya təzyiqi formalaşdırmağa çalışır. Lakin real faktlardan və hüquqi əsaslardan uzaq olan bu cür mənasız addımlar obrazlı desək, "stəkanda fırtına yaratmaq" cəhdindən uzağa gedə bilməz. Çünki erməni lobbisinin "günahsız ermənilər" kimi təqdim etdiyi həmin şəxslər faktiki olaraq mülki əhaliyə qarşı və digər ağır müharibə cinayətlərində, terrorçuluqda, separatçılığı maliyyələşdirməkdə ittiham olunaraq layiqli cəzalarını alıblar. Onların arasında Avropada maliyyə fırıldaqlarında adı hallanan Ruben Vardanyan kimi fiqurlar da var.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevanın Paris meri Emmanuel Qrequara ünvanladığı etiraz məktubunda vurğulandığı kimi, Fransanın belə profilli şəxslərin azad edilməsini tələb etmək ziddiyyətli, absurd və ikili standartların bariz nümunəsidir. Qeyd edək ki, məhz səfirin prinsipial və operativ diplomatik reaksiyasından sonra Paris meriyası tərəfindən sərginin rəsmi açılışının ləğv edilməsi erməni təbliğat maşınına vurulan növbəti ağır zərbə olub. Bununla belə, Fransanın rəsmi qurumlarının, xüsusilə Paris meriyasının radikal erməni icmasının həmin ərazidə keçirdiyi təxribatçı aksiyalara göz yumması, hətta buna şərait yaratması bu ölkənin qərəzini nümayiş etdirir. Azərbaycan və Ermənistan arasında dinc gələcəyin təməllərinin atıldığı bir vaxtda Fransanın rəsmi qurumlarının erməni diasporunun pozucu təşəbbüslərinə dəstəyi, revanşizmə meydan verməsi qəbuledilməzdir.

Aydındır ki, bölgədə yaranmış yeni geosiyasi reallıqlar fonunda erməni diasporunun son günlərdə bu qədər fəallaşmasının kökündə dərin narahatlıq, acizlik və çarəsizlik dayanır. İllər boyu Qərb paytaxtlarında xüsusi imtiyazlar və maliyyə resursları əldə edən erməni lobbi təşkilatları mövcudluqlarını məhz münaqişənin, düşmənçiliyin və nifrət ritorikasının davam etməsində görüblər. Paşinyan hökumətinin sülh xəttinə qarşı çıxan bu dairələr yaxşı anlayırlar ki, Bakı ilə İrəvan arasında sülhün və sabitliyin bərpa olunması onların illərdir topladıqları siyasi və maliyyə dividendlərini, mövcudluqlarını təhlükə altına salır. Bu səbəbdən erməni lobbisi yaşadıqları ölkələrin siyasi dairələrinə, meriyalara və ictimai rəyinə təsir göstərərək Azərbaycan əleyhinə süni cəbhə formalaşdırmağa cəhd edirlər. Lakin dərk etmədikləri odur ki, bu çirkin məqsədlər kökündən iflasa məhkumdur.

Qərbdəki qərəzli mərkəzlərin və revanşistlərə arxalanan erməni lobbisinin Azərbaycan əleyhinə yönəlmiş təxribat təşəbbüsləri, qarayaxma kampaniyaları daxili auditoriyaya hesablanmış ucuz şoudan başqa bir şey deyil. Azərbaycan milli maraqlarını müdafiə etməyə qadir olan, regionun iqtisadi və hərbi baxımdan ən qüdrətli dövlətidir. Cənubi Qafqazın gələcəyini erməni diaspor qrupları deyil, bölgədə sülh, əməkdaşlıq, quruculuq və inkişaf tərəfdarı olan güclü Azərbaycan dövləti müəyyən edir. Bu baxımdan, Parisdə və ya Avropanın başqa şəhərində təşkil edilən təxribatçı sərgilər, aksiyalar Azərbaycanın haqlı və strateji xəttinə zərrə qədər də olsa, təsir göstərə bilməz. Bütün bu cəhdlər hər dəfə olduğu kimi, yenə də tam uğursuzluqla nəticələnəcək.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Avropa İttifaqından BMT-yə dəstək: Çoxtərəfli əməkdaşlıq yenilənməlidir

**Avropa İttifaqı və üzv dövlətlər Birləşmiş Millətlər Təşkilatının mərkəzi rolunu qorumaqla çoxtərəfli əməkdaşlığın yenilənməsi və gücləndirilməsinə dəstək ifadə ediblər.**




AZƏRTAC xəbər verir ki, bu barədə Aİ-nin Xarici Əlaqələr Xidmətinin yaydığı bəyanatda bildirilib. Sənəddə beynəlxalq hüququn və BMT Nizamnaməsinin prinsiplərinin qaydalara əsaslanan beynəlxalq nizamın əsasını təşkil etdiyi vurğulanıb. Aİ artan geosiyasi gərginliklər və beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar qanunvericiliyin ciddi şəkildə pozulmasından narahatlığını ifadə edib.

Aİ BMT-ni sülhün və təhlükəsizliyin qorunmasında, davamlı inkişafın təşviqində əvəzolunmaz qurum kimi qiymətləndirib. İttifaq BMT-nin islahatlarının davam etdirilməsinə, o cümlədən "BMT-80" təşəbbüsünə dəstəyini təsdiqləyib. İttifaq həmçinin beynəlxalq hüququn pozulmasına görə məsuliyyətin təmin edilməsində beynəlxalq məhkəmələrin rolunu dəstəkləyib.

# Bakıda Avropa-Azərbaycan münasibətlərinə dair müzakirələr aparılıb

**Bakıda Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və "LINKS Europe" Fondunun təşkilatçılığı ilə "Avropa-Azərbaycan münasibətləri: Tarixi təcrübənin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətləri" mövzusunda "dəyirmi masa" keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində "LINKS Europe" Fondunun direktoru Dennis Sammut Avropa-Azərbaycan münasibətlərini təhlil etməyin və perspektivlərini müzakirə etməyin tam vaxtı olduğuna diqqət çəkib. O vurğulayıb ki, 30 il ərzində Qarabağ məsələsi təkcə siyasi gündəmi deyil, həm də insanların düşüncəsini zəbt edib. İndi isə Qarabağ Azərbaycana qayıdıb və Ermənistanla sülh perspektivi yaranıb. Bu, Azərbaycan-Ermənistan, Azərbaycan-Avropa İttifaqı münasibətlərində, eləcə də bütövlükdə Cənubi Qafqazda yeni eranın başlanğıcıdır.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Cənubi Qafqazın geosiyasi mənzərəsinin əhəmiyyətli dərəcədə dəyişdiyini bildirib. Onun sözlərinə görə, bu dəyişiklik Azərbaycan-Ermənistan münaqişəsinin geridə qalması və bölgədə yaranan sülh mühiti ilə bağlıdır. "Lakin ehtiyatlı olmalıyıq. Çünki həm Avropa İttifaqından (Aİ) kənarda, həm də Aİ daxilində sülh prosesini pozmağa çalışan qüvvələr var. Sözügedən qüvvələrin geniş lobbiçilik şəbəkələri və "ictimai vəkillik" adlandırılan mexanizmləri mövcuddur. Müxtəlif Avropa təsisatlarında və bəzi hallarda media qurumlarında bu cür hallarla hələ də qarşılaşırıq. Bəzi şəxslər humanitar məsələlər pərdəsi altında Qarabağ mövzusunu yenidən gündəmə gətirməyə çalışırlar. Halbuki hər iki ölkənin - Azərbaycanın və Ermənistanın liderləri davamlı sülhün və barışığın təmin olunması niyyətlərini dəfələrlə vurğulayıblar", - deyə İdarə Heyətinin sədri bildirib.

Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundjiç Azərbaycanın Avropa İttifaqının mühüm və etibarlı enerji tərəfdaşına çevrildiyini xatırladaraq deyib: "Biz Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olmaqdan qürur duyuruq. Son illər artan qarşılıqlı səfərlər isə münasibətlərin yalnız enerji sahəsi ilə məhdudlaşmadığını, eyni zamanda bir çox sahədə əlaqələrin ardıcıl şəkildə inkişaf etdiyini göstərir. Ümumiyyətlə, Aİ-Azərbaycan münasibətlərini düşünərkən mənim ağlıma gələn söz "dinamik" oldu. Bu, kifayət qədər diplomatik ifadədir, lakin münasibətlərimizdə dinamizmin, həqiqətən də mövcud olduğunu düşünürəm. Bu dinamizm əməkdaşlığımızın yeni sahələrə doğru genişlənməsində və qarşılıqlı əlaqələrin intensivləşməsində özünü göstərir".

Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov isə qeyd edib ki, Cənubi Qafqazda artıq münaqişə yoxdur və hazırda sülh gündəliyi ön plandadır. Vətəndaş cəmiyyətləri arasında birbaşa təmasların və görüşlərin keçirilməsi də müsbət tendensiyadır. "Bu istiqamətdə təşkil olunan tədbirlərdən bir neçəsində iştirak etmək imkanım olub. Münaqişə ilə bağlı əvvəlki yanaşma öz yerini sülh gündəliyinə verir. Eyni zamanda iqtisadi təmasların qurulması, nəqliyyat əlaqələrinin bərpası və iqtisadi əlaqələrin inkişaf etdirilməsi kimi konkret addımlar da sülh prosesinin mühüm tərkib hissəsidir. Bütün bunlar hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə dəstəklənir", - deyə XİN-in Xüsusi tapşırıqlar üzrə səfiri bildirib.

Daha sonra "dəyirmi masa" çərçivəsində panel müzakirə keçirilib.

Panel iştirakçıları Avropa-Azərbaycan münasibətlərinin inkişaf dinamikası, mövcud əməkdaşlıq istiqamətləri və qarşılıqlı əlaqələrin genişləndirilməsi imkanları barədə fikirlərini bölüşüblər. Eyni zamanda dəyişən regional və qlobal geosiyasi reallıqlar fonunda Azərbaycan ilə Avropa arasında da əməkdaşlığın perspektivləri, iqtisadi və siyasi əlaqələrin inkişafı, eləcə də sülh gündəliyinin yaratdığı yeni imkanlar müzakirə olunub.

# Murat KURUM: "Bakıdakı COP29-da 2035-ci ilədək iqlim maliyyələşməsinin 300 milyard dollara çatdırılması müəyyənləşdirilib"

**"Azərbaycanın evsahibliyi ilə Bakıda keçirilən COP29-da 2035-ci ilə qədər iqlim maliyyələşməsinin 300 milyard dollara çatdırılması istiqamətində hədəf müəyyənləşdirilib. Daha geniş çərçivədə isə ildə 1,3 trilyon dollarlıq maliyyə resursunun səfərbər edilməsi nəzərdə tutulur. Burada əsas məsələ həmin resursların investisiyaya ehtiyacı olan ölkələrə və layihələrə vaxtında çatmasıdır. Bu, çox vacibdir".**




AZƏRTAC xəbər verir ki, bu fikirləri **COP31 Sədri, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat KURUM** İstanbulda beynəlxalq media nümayəndələri ilə görüşündə deyib.

"Keçmişdə 100 milyard dollarlıq iqlim maliyyələşməsi hədəfi ilə bağlı yaşanan gecikmələr bizə mühüm təcrübə qazandırdı. Təcrübə göstərdi ki, bu, maliyyələşmədə elan edilmiş məbləğin və maliyyə resursunun vaxtında, proqnozlaşdırılan şəkildə və dəyişdirilmədən real layihələrə çatdırılması ilə mümkündür. Lakin bunun qarşısında başqa bir problem də var. Bir tərəfdə kapital, digər tərəfdə isə çox böyük investisiya ehtiyacı mövcuddur. Yəni məsələ yalnız maliyyə resursunun mövcudluğu deyil. Əsas məsələ bu resursların düzgün layihələrlə əlaqələndirilməsi, investisiya mühitinin gücləndirilməsi və maliyyələşmənin ehtiyac olan ölkələrə çatdırılmasıdır. Ona görə də biz burada etməli olduğumuz kapital ilə investisiya ehtiyacı arasındakı bu boşluğu aradan qaldıracaq mexanizmləri birlikdə inkişaf etdirməkdir",- deyə nazir bildirib.

O qeyd edib ki, məqsəd dövlət resurslarını, özəl sektor investisiyalarını və beynəlxalq maliyyəni eyni yanaşma ətrafında bir araya gətirməkdir: "Çünki yalnız bu yolla iqlim hədəflərini real investisiyalara, real investisiyaları isə insanların həyatında konkret nəticələrə çevirə bilərik".

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev də iştirak edib.

# Azərbaycan "yeraltı müharibə"ni də təkbaşına aparır

## Beynəlxalq təşkilatdan umduğumuz bu terrora obyektiv qiymətdir

**Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın işğalda saxladığı dövrdə ilkin qiymətləndirmələrə görə, torpaqlarımıza 1,5 milyondan artıq mina basdırıb. Başqa sözlə, rəsmi məlumatlara əsasən, Azərbaycanın ərazisinin 1,3 faizindən çoxu mina və partlamamış sursatların təsirinə məruz qalıb. Piyadalar Əleyhinə Minaların Qadağan Olunması Uğrunda Beynəlxalq Kampaniyanın kasetli silahlar koalisiyasının hesabatında isə Azərbaycan dünyanın mina və partlamamış hərbi sursatlarla ən çox çirklənməyə məruz qalmış ölkələr sırasındadır.**

Xatırladaq ki, 2020-ci il noyabrın 10-dan 2026-cı ilin avqustunadək Qarabağ və Şərqi Zəngəzurda 298 min 551 hektar ərazi minalardan təmizlənib. Ümumilikdə 260 mindən çox mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Bu günədək "yeraltı müharibə"də 437 nəfər ziyan çəkib, o cümlədən onların 73-ü həyatını itirib, 364 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ümumiyyətlə, Erməni silahlı birləşmələrinin Azərbaycana qarşı təcavüzü başlayandan içlərində azyaşlıların, qadınların və digər mülki şəxslərin olduğu 500-dən çox vətəndaş zərər çəkib. Bütün bunlar həmin ərazilərdə sosial-iqtisadi inkişafın ləngiməsinə, mədəni irsin bərpasına və yenidənqurma prosesinə, həmçinin keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışına böyük maneələr yaradır. Hərbi silah kimi düşünülən minaların qurbanları hazırda əsasən mülki şəxslərdir.

Müharibənin Azərbaycanın qələbəsi ilə bitməsinə baxmayaraq, faktlar "yeraltı müharibə"nin hələ davam etdiyini göstərir. Mina hadisələri insanların gündəlik həyat fəaliyyətini məhdudlaşdırır, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan əhali üçün əlavə risklər yaradır. Beynəlxalq görüşlərdə, ən vacib məqamlarda bu məsələni önə çəkən Prezident İlham Əliyev bu günlər ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul edərkən də bu problemi qabartmışdır. ATƏT Parlament Assambleyasının prezidenti Bakıda keçirilən "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda keçirilən 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının əhəmiyyətinə toxunaraq minalar probleminin ATƏT Parlament Assambleyasının gündəliyində də müzakirə olunduğunu bildirmişdir.

Xatırladaq ki, 1994-cü il mayın 12-də imzalanmış atəşkəs sazişindən sonra Azərbaycan Ordusunun mühəndis-istehkam qoşunları Füzuli rayonunun işğaldan azad olunmuş 22 kəndində 15 minalanmış sahədən 19 min tank əleyhinə, 22 min isə piyadalar əleyhinə mina taparaq zərərsizləşdirmişlər. Nəzərə almaq lazımdır ki, həmin kəndlər cəmi 3 ay işğal altında qalmışdı. Amma buna baxmayaraq, o dövrdə həmin ərazidən ümumilikdə 41 mindən çox mina aşkar edilərək zərərsizləşdirilmişdir. Özü də həmin dövr ANAMA mövcud deyildi. Bu işi Müdafiə Nazirliyinin mühəndis-istehkam qoşunları görürdü.




Mina və partlamamış hərbi sursat təhlükəsi itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərində axtarış və qazıntı işlərinin aparılmasına da ciddi maneə yaradır. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə 300-dən çox kəhriz (yeraltı su mənbələri) mina və partlamamış hərbi sursatlarla çirkləndirilib. Köndələnçay, Tərtər, Qarqar, Xaçın, Həkəri çayları minalarla çirkləndirilib, kanallar dağıdılıb və ətrafı minalanıb.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra Ermənistanın Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam etməsi sübuta yetirilmiş faktdır. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bunun təsdiqidir. 23 saatlıq lokal xarakterli antiterror tədbirindən sonra Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca da 500 mindən artıq mina basdırıldığı aşkarlanmışdır.

Azərbaycan fürsət düşdükcə ölkəmizin ərazisindəki mina probleminə beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Sıradan fakt deyil - ölkəmizin ərazisinin 12 faizi minalarla və partlamamış sursatlarla çirklənib. Bu isə kənd təsərrüfatı üçün yararlı torpaq fondunun 28 faizi deməkdir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro ilə görüşündə digər məsələlərlə yanaşı, postmünaqişə dövründə bölgədə mövcud olan humanitar məsələlərə toxunaraq mina təhdidinin hələ də Azərbaycan üçün ciddi təhlükə olaraq qaldığını bildirib. Mina partlayışlarının insan həyatı ilə bərabər, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına və regional inkişaf prosesinə mane olduğunu açıqlayıb. Nazir həmçinin itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinin müəyyənləşdirilməsinin mühüm humanitar məsələ olduğunu diqqətə çatdırıb.

Ölkəmizdə minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu daxili resurslar hesabına aparılır. Azərbaycan erməni işğalını təkbaşına aradan qaldırdığı kimi, təcavüzkarın təhlükə saçan qalıqlarını da ərazilərindən özü təmizləyir. Hazırda minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biridir. Vətən müharibəsində əldə edilən Zəfərdən sonra həmin ərazilərdə geniş quruculuq işlərinin sürətli həyata keçirilməsini və sakinlərin öz yurdlarına təhlükəsiz dönməsini təmin etmək üçün minatəmizləmə xüsusi əhəmiyyət daşıyır və burada aparıcı rol ANAMA-ya məxsusdur. Bununla yanaşı, ANAMA yanında İctimai Şuranın, mina qurbanları və onların ailə üzvləri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun icra etdiyi Azərbaycanın ilk qadın minaaxtaranları layihəsinin əməkdaşları Qarabağda mütəmadi tədbirlər həyata keçirirlər. Bu tədbirlərin sayəsində Azərbaycanın üzləşdiyi mina probleminin miqyası, hökumətin "yeraltı müharibə"yə qarşı apardığı mübarizə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planına əsasən, 2026-cı ilin sonunadək 280 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub. Xatırladaq ki, proqram çərçivəsində 2022-2025-ci illər ərzində 228227 hektar ərazi minalardan tam şəkildə təmizlənib.

Bu gün Azərbaycanın milli prioriteti Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Lakin bu ərazilərin minalanması bərpa-quruculuq işlərinə ciddi maneə olaraq qalmaqdadır. Azərbaycan bu çətinliklə təkbaşına mübarizə aparır. Həyata keçirilən minatəmizləmə prosesinə ANAMA-dan əlavə, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, qeyri-hökumət təşkilatı və 5 yerli şirkət cəlb edilib. Görünən odur ki, Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi "yeraltı müharibə" terroruna beynəlxalq təşkilatlar ciddi reaksiya verməlidirlər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Baş prokuror paytaxtın Yasamal rayonunda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Sentyabrın 4-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Yasamal Rayon Prokurorluğunun inzibati binasında Yasamal rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 65 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*"Azərbaycan"*

# Bakıda Tacikistanın dövlət müstəqilliyinin 35-ci ildönümü qeyd olunub









**Sentyabrın 4-də Bakıda Tacikistanın Dövlət Müstəqilliyinin 35-ci ildönümünə həsr olunmuş təntənəli tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Tacikistanın ölkəmizdəki səfirliyinin təşəbbüsü ilə keçirilən tədbirdə dövlət və hökumət nümayəndələri, diplomatik nümayəndəliklərin rəhbərləri, deputatlar, ölkənin biznes, elm və mədəniyyət dairələrinin təmsilçiləri, habelə jurnalistlər iştirak ediblər.

Tacikistanın ölkəmizdəki səfiri İlhom Abdurahmon müstəqillik illərində ölkəsinin siyasi, sosial-iqtisadi və mədəni sahələrdə əldə etdiyi mühüm nailiyyətlərdən bəhs edib.

Təbrik çıxışında Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Tacikistan və Azərbaycan arasında mövcud olan ikitərəfli əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirib, dövlətlərarası dostluq münasibətlərinin və strateji tərəfdaşlığın gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Tədbir çərçivəsində qonaqlara tacik xalq mahnıları və rəqslərindən ibarət zəngin konsert proqramı təqdim olunub. Eyni zamanda tədbir zamanı milli sənətkarlıq nümunələrinin təqdim olunduğu sərgi təşkil edilib. Sərgidə milli geyimlər, Tacikistanın ənənəvi tikmələri - çakan, suzani, popuri, habelə tacik ustalarının əl işləri nümayiş etdirilib.

# Kiçik biznesin böyük rolu

## KOB iqtisadi inkişafın dayağıdır

**Azərbaycan iqtisadiyyatının inkişafında kiçik və orta biznes subyektlərinin (KOB) rolu getdikcə artır. KOB yeni iş yerlərinin yaradılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yerli iqtisadiyyatın inkişafı baxımından çox əhəmiyyət daşıyır. Böyük şirkətlərlə müqayisədə daha çevik və dəyişən bazar şərtlərinə daha tez uyğunlaşa bilən KOB istehlakçı tələbatının ödənilməsində və yeni biznes ideyalarının reallaşdırılmasında da mühüm rol oynayır.**

Kiçik və orta biznesin iqtisadiyyatda tutduğu mövqe, təbii ki, yalnız gəlir əldə edən kommersiya subyektləri olması ilə məhdudlaşmır. KOB-lar özəl sektorun əsas fəaliyyət subyektlərindən biri kimi iqtisadi fəallığın artmasında, yeni biznes təşəbbüslərinin formalaşmasında və sahibkarlıq mühitinin inkişafında mühüm rol oynayır. Bu cür biznesin müxtəlif iqtisadi fəaliyyət sahələrində iştirakı rəqabətin güclənməsinə, məşğulluğun artmasına və bazarın tələblərinə uyğun yeni məhsul və xidmətlərin formalaşmasına şərait yaradır.

Ümumiyyətlə, KOB iqtisadiyyatın hər sahəsində iştirak edən və bazarın real ehtiyaclarına çevik reaksiya verən sahibkarlıq subyektləridir. Ölkəmizdə fəaliyyət göstərən sahibkarların kifayət qədər yüksək faizini KOB-ların təşkil etməsi bu sektorun iqtisadi həyatımızdakı çəkisini aydın göstərir. Ticarət, nəqliyyat və anbar təsərrüfatı, turizm və ictimai iaşə, sənaye, daşınmaz əmlak kimi özəl sektor və digər sahələrdə fəaliyyət göstərən KOB-lar iqtisadi fəallığın müxtəlif istiqamətlərində öz izini qoyur.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov özəl sektorun inkişafında bu yanaşmanın əhəmiyyətini belə vurğulayır: "Özəl sektorun inkişafı, mikro, kiçik və orta biznes subyektlərinin dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Sahəvi görüşlər, regional müzakirələr, sorğular, bizneslərə birbaşa səfərlər vasitəsilə sıx ünsiyyət əsasında əldə edilmiş məlumat və ehtiyaclar sırf KOB subyektləri üçün ünvanlı dəstək mexanizmlərinin hazırlanmasına imkan verib. Ümumilikdə 70 minə yaxın KOB subyekti və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər bu dəstəklərdən yararlanıb. İndiyə qədər KOB evlərində 1,5 milyondan artıq xidmət göstərilib. KOB evinin rəqəmsal modeli olan Elektron KOB evi portalından da artıq istifadə etmək mümkündür".

Bu geniş fəaliyyət miqyası KOB sektorunda müşahidə olunan artım dinamikasında da öz əksini tapır. Son 6 ildə Azərbaycanda KOB subyektlərinin sayı 74 faiz artaraq 424 mini ötüb. Eyni dövrdə KOB-ların yaratdığı əlavə dəyərin həcmi 2 dəfədən çox artaraq 10 milyard manatdan 21 milyard manata çatıb, bu sektorda məşğulluq isə 47 faiz artıb. Göstəricilər KOB-un ölkə iqtisadiyyatında rolunun iqtisadi dəyərin və məşğulluğun formalaşmasında getdikcə artdığını göstərir. Artımın arxasında isə biznes mühitinin yaxşılaşması və KOB-ların ehtiyaclarına uyğun dövlət dəstək mexanizmlərinin istiqamətində həyata keçirilən tədbirlər dayanır.



Həmin dəstəyin konkret istiqamətlərindən biri də sosialyönümlü sahibkarlığın inkişafıdır. Bu istiqamətdə həyata keçirilən "Qarabağ KOB-ları" layihəsi Vətən müharibəsi iştirakçıları, qazilər, şəhid ailələri və onların üzvlərinin sahibkarlıq fəaliyyətinə cəlb olunmalarına, məşğulluqlarının təmin edilməsinə və sosial rifahlarının yaxşılaşmasına dəstək verir. Layihə çərçivəsində iştirakçılar biznes və peşə təlimlərinə cəlb olunurlar. Təlimləri uğurla başa vuranlara seçdikləri fəaliyyət istiqamətləri üzrə avadanlıqlar verilir. 2025-ci ildə layihə Bakı, Abşeron, Sumqayıt, Gəncə, Goranboy və Mingəçevirlə yanaşı, Füzuli, Xocalı, Laçın və Şuşanı da əhatə edib. İl ərzində 100 nəfər biznes və peşə təlimlərinə cəlb olunub.

Bu kimi təşəbbüslər göstərir ki, KOB-lara yönələn dövlət dəstəyi sahibkarlığın daha geniş sosial və regional müstəvidə inkişafına xidmət edir. Burada məqsəd təbii ki, sadəcə, yeni sahibkarlıq subyektlərinin yaranmasını artırmağa yönəlməyib. Onların dayanıqlı şəkildə böyüməsi vacib şərtdir. Bu baxımdan mikrosahibkarın kiçik, kiçik sahibkarın orta, orta biznesin isə daha iri biznesə çevrilməsi iqtisadi inkişafın təbii və arzuolunan mərhələləridir.

KOB-ların iqtisadiyyatda artan çəkisi onların innovasiya və rəqabət mühitinin formalaşmasında da rolunu gücləndirir. İndi KOB-ların daha çevik fəaliyyət göstərməsi ön plandadır - bu, zamanın tələbidir. Ona görə də KOB subyektləri bazardakı dəyişikliklərə tez uyğunlaşmalı, innovativ yeniliklərə uyğunlaşmalı, müasir texnologiyalardan istifadə edərək yeni məhsul və xidmətlər təqdim etməlidirlər. KOB-ların belə fəaliyyəti bazarda rəqabətin güclənməsinə, sahibkarların məhsul və xidmətlərin keyfiyyətini artırmasına, həmçinin istehlakçı tələblərinə daha çevik cavab verməsinə yol açır. Elektron xidmətlərin genişləndirilməsi, rəqəmsal texnologiyaların biznes proseslərinə inteqrasiyası və innovativ biznes ideyalarının dəstəklənməsi sahibkarların daha müasir və rəqabətqabiliyyətli fəaliyyət modelinə keçidini sürətləndirir. Xüsusilə kiçik biznes üçün texnologiyaların əlçatanlığının artması onların böyük şirkətlərlə rəqabət imkanlarını genişləndirir. Rəqabətin güclənməsi isə sahibkarları daha keyfiyyətli məhsul və xidmətlər təqdim etməyə, xərcləri azaltmağa və resurslardan daha səmərəli istifadə etməyə sövq edir. Bu mənada KOB-lar innovasiyanın iqtisadiyyata yayılmasında və daha çevik, rəqabətli özəl sektorun formalaşmasında mühüm rol oynayır.

KOB-ların inkişafı göstərir ki, kiçik biznesin iqtisadiyyatda rolu heç də kiçik deyil. Bu müəssisələr məşğulluğun təmin olunmasında, yeni biznes təşəbbüslərinin yaranmasında, eləcə də iqtisadi inkişafın bir çox istiqamətində çox böyük rol oynayırlar. Və bütün bunlar onu deməyə əsas verir ki, KOB-ların inkişafına qoyulan investisiya bütövlükdə özəl sektora və ölkə iqtisadiyyatına yatırılan sərmayədir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Aziz Sancar - 80

# Türk dünyasının qüruru

**Elm tarixində elə şəxsiyyətlər var ki, kəşfləri ilə yeni istiqamətlərə yol açır, öz məktəblərini formalaşdırır və elmə baxışları ilə cəmiyyətin, dövlətin gələcək inkişafına və ictimai düşüncəyə əhəmiyyətli təsir göstərirlər. Nobel mükafatı laureatı, görkəmli biokimyaçı və molekulyar bioloq, türk dünyasının böyük oğlu, professor Aziz Sancar məhz belə alimlərdəndir.**

1946-cı il sentyabrın 8-də Türkiyənin Mardin vilayətinin Savur rayonunda dünyaya gəlmiş Aziz Sancarın həyatı bir tərəfdən Anadolu və Mesopotamiyanın sadə mühitindən çıxmış bir gəncin dünya elminin ən nüfuzlu mərkəzlərinə yüksəlişinin, digər tərəfdən isə fundamental elmin insan sağlamlığı ilə bağlı ən mürəkkəb problemlərin həllində oynadığı mühüm rolun parlaq nümunəsidir.

Aziz Sancarın həyat yolunda təhsil həlledici rol oynamışdır. Valideynlərinin elmə və maariflənməyə verdiyi dəyər sonralar gənc Azizin dünyagörüşünün mühüm tərkib hissəsinə çevrilmişdir. 1969-cu ildə İstanbul Universitetinin Tibb fakültəsini bitirən Sancar bir müddət doğma Savurda həkim kimi çalışmışdır. Lakin onu daha çox canlı orqanizmlərdə gedən bioloji proseslər və onların tənzimlənmə mexanizmlərinin öyrənilməsi cəlb edirdi. Aziz Sancar elmi karyera qurmaq məqsədilə getdiyi ABŞ-də ilk illər dil və yeni akademik mühitə uyğunlaşmaqda çətinliklərlə üzləşərək, hətta bir müddət Türkiyəyə qayıtmaq məcburiyyətində qalmışdır. Sonradan yenidən ABŞ-yə dönərək Dallasdakı Texas Universitetində Nobel mükafatçısı Klaud S.Rupertin rəhbərlik etdiyi laboratoriyada tədqiqatlara başlamışdır.



Onun əsas tədqiqat istiqamətlərindən biri DNT-dəki zədələnmələrin bərpasının molekulyar mexanizmlərinin öyrənilməsi olmuşdur. 1970-ci illərdə fotoliaza fermentini kodlaşdıran genin klonlaşdırılması üzrə əldə etdiyi nəticələr bu sahədə diqqətçəkən uğurlar sırasına daxil olmuşdur. Daha sonra Yale Universitetində fəaliyyətini davam etdirən Sancar, 1982-ci ildən etibarən Şimali Karolina Universitetində çalışaraq dünya miqyasında tanınan elmi məktəb formalaşdırmışdır.

## Sancarı Nobelə aparan böyük kəşf

Aziz Sancarın Nobel mükafatına aparan əsas elmi nailiyyətləri ultrabənövşəyi şüaların DNT-də yaratdığı zədələrin necə aradan qaldırılmasının öyrənilməsi ilə bağlı olmuşdur. Ultrabənövşəyi şüalanma nəticəsində DNT-də qonşu pirimidin əsasları, xüsusilə timinlər arasında siklobutan pirimidin dimerləri əmələ gəlmişdir. Belə zədələr genetik informasiyanın normal surətdə oxunmasına və köçürülməsinə mane olur.

Sancar əvvəlcə Escherichia coli bakteriyasında bu tip zədələri aradan qaldıran fotoliaza fermentinin fəaliyyət mexanizmini araşdırmış, daha sonra isə diqqətini nukleotid eksiziyasının bərpasına yönəltmişdir.

1982-ci ildə apardığı tədqiqatların nəticələri DNT-nin bərpa mexanizmlərinin molekulyar əsaslarının anlaşılmasında mühüm mərhələ olmuşdur. Sonrakı illərdə onun rəhbərlik etdiyi laboratoriyada insan hüceyrələrində nukleotid eksiziyasının bərpa sistemi araşdırılmışdır. Uzunmüddətli tədqiqatlar nəticəsində insan hüceyrələrində zədələnmiş DNT-dən kənarlaşdırılan fraqment müəyyən edilmiş, onun təxminən 24-32 nukleotiddən, orta hesabla isə 27 nukleotiddən ibarət olduğu göstərilmişdir. Bu nəticə insanlarda DNT-nin reparasiyasının molekulyar mexanizmlərinin daha dərindən başa düşülməsinə imkan vermişdir.

Sancarın əldə etdiyi nəticələr təkcə fundamental biologiya üçün deyil, tibb baxımından da böyük əhəmiyyət daşımışdır. Professorun araşdırmaları DNT-nin reparasiyası prosesləri, mutasiyaların yaranması və xərçəngin inkişafı arasındakı əlaqələrin aydınlaşdırılmasına mühüm töhfələr vermişdir.

Aziz Sancarın elmi fəaliyyətində diqqətçəkən istiqamətlərdən biri də DNT-nin reparasiyası proseslərinin insan genomu boyunca xəritələndirilməsi olmuşdur. O, bu nəticələri metaforik şəkildə "mənim Piri Reis xəritəm" adlandırmışdır. Bu bənzətmə təsadüfi deyildi. Belə ki, XVI əsrdə Piri Reis dünyanın xəritəsini tərtib etmişdi, Sancar da genomun müxtəlif bölgələrində bərpa proseslərinin necə paylandığını müəyyənləşdirməyə çalışmışdır.

Aziz Sancarın laboratoriyası sonrakı illərdə XR-seq metodunun inkişafına mühüm töhfə vermişdir. Bu yanaşma genomun hansı hissələrində zədələrin daha sürətlə, hansı sahələrində isə daha zəif aradan qaldırıldığını yüksək dəqiqliklə müəyyən etməyə imkan yaratmışdır.

Aziz Sancarın elmi fəaliyyətinin digər mühüm istiqaməti ilk baxışda DNT-nin reparasiyası ilə əlaqəsiz görünən sirkad ritmlər və bioloji saat sistemi olmuşdur. Lakin alimin tədqiqatlarının daxili məntiqi burada da özünü göstərmişdir. Çünki hüceyrələrin DNT zədələnmələrinə reaksiyası və bərpa proseslərinin intensivliyi bioloji ritmlərlə sıx əlaqəlidir. Aziz Sancarın 1990-cı illərin sonlarından etibarən apardığı tədqiqatlar DNT reparasiyası, hüceyrə biologiyası və zaman biologiyası arasında yeni əlaqələr ortaya qoymuşdur. Bu araşdırmalar xronoterapiya adlanan yanaşmaya da elmi əsas yaratmışdır.

Bu yanaşma xərçəng müalicəsində yalnız "hansı dərman istifadə edilməlidir?" sualını deyil, həm də "dərman nə vaxt tətbiq edilməlidir?" sualını ön plana çıxarmışdır. Sancar sirkad ritmlərlə DNT-nin reparasiyası arasındakı əlaqənin onkologiya üçün əhəmiyyətini hələ Nobel mükafatından əvvəl vurğulamış və bu istiqamətin böyük perspektiv vəd etdiyini bildirmişdir.

## Nobel mükafatı: zirvə deyil, yeni mərhələnin başlanğıcıdır

7 oktyabr 2015-ci ildə İsveç Kral Elmlər Akademiyası Kimya üzrə Nobel mükafatının Tomas Lindahl, Paul Modrich və Aziz Sancara verildiyini elan etdi. Mükafat alimlərə "DNT-nin reparasiya mexanizmlərinin tədqiqinə görə" təqdim olunmuşdu. Bu qərar DNT-də yaranan zədələrin hüceyrə tərəfindən necə aşkarlandığını və aradan qaldırıldığını anlamaq istiqamətində aparılan fundamental tədqiqatların əhəmiyyətini bir daha göstərmişdir.

Aziz Sancar üçün Nobel mükafatının xüsusi mənəvi və milli əhəmiyyəti də vardı. Sancar bu mükafatı alan ilk Türkiyə doğumlu alim kimi tarixə düşmüşdür. Elm sahəsində Türkiyənin adını Nobel tarixinin səhifələrinə ilk dəfə o yazdırmışdır. Bundan on il əvvəl - 2005-ci ildə gələcək Nobelçinin ilk türk-amerikalı alim kimi ABŞ Milli Elmlər Akademiyasına üzv seçilməsi də mühüm hadisə idi.

Aziz Sancarın elmi nailiyyətləri arasında həmçinin ABŞ Milli Elm Fondunun Young Investigator Award mükafatı, Amerika Fotobiologiya Cəmiyyətinin mükafatı, TÜBİTAK mükafatı, Amerika İncəsənət və Elmlər Akademiyasına üzvlük, TÜBA üzvlüyü, Vehbi Koç Mükafatı və s. xüsusi yer tutur.

Aziz Sancarın elmi fəaliyyətindəki davamlılıq 80 illik yubileyi dövründə də aydın görünür. 2026-cı ildə professorun həmmüəllifi olduğu elmi məqalələr onun yuxarıda qeyd edilən tədqiqatları uğurla davam etdirdiyini göstərir. Maraqlıdır ki, bu tədqiqatların mühüm bir istiqaməti DNT-nin bərpası mexanizmləri haqqında fundamental biliklərin xərçəng müalicəsinə tətbiqi ilə bağlıdır.

Sancarın böyüklüyünü təsdiq edən ən mühüm faktlardan biri də özündən sonra davam edəcək elmi məktəb formalaşdırmasıdır. Şimali Karolina Universitetində onun laboratoriyası onilliklər ərzində DNT-nin reparasiyası, genom sabitliyi, sirkad və xərçəng biologiyası istiqamətlərində tədqiqat aparan çoxsaylı alimlərin yetişdiyi elmi mərkəzə çevrilmişdir.

Aziz Sancar Azərbaycan üçün konkret kadr hazırlığında da iştirak etmişdir. Genetik Ehtiyatlar İnstitutunun doktorantı olmuş Xaqani Eynullazadəyə (hazırda Şimali Karolina Universitetində çalışır) elmi rəhbərlik edərək onun ABŞ-də təhsil almasına və müdafiəsinə kömək göstərmişdir.

## Türk dünyası ideyası və Sancarın yeni missiyası

Sancarın ictimai dünyagörüşündə Mustafa Kamal Atatürk və Türkiyə cümhuriyyətinin elm və təhsil siyasəti xüsusi yer tutur. Nobel mükafatından sonra ən çox müzakirə olunan addımlarından biri Nobel medalını Anıtkabirə təqdim etməsi olmuşdur. Sancar bunu Atatürk və cümhuriyyət qarşısında minnətdarlığının ifadəsi kimi izah etmişdi.

Aziz Sancarın Nobel laureatı kimi fəaliyyətinin mühüm istiqamətlərindən biri də türk dünyasında elm və təhsilin inkişafına verdiyi diqqətdir. Onun bu sahədə fəaliyyəti son illərdə daha sistemli xarakter almışdır. Sancar türk dünyasının müxtəlif ölkələrində elm və təhsil müəssisələrində çıxışlar edir, gənc alimlərlə görüşür, elm siyasəti və elmi inkişafın prioritetləri haqqında fikirlərini bölüşür.

2024-cü ildə Bakıda AMEA-nın Ümumi yığıncağının Xüsusi iclasında onun "Türk dünyası və elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda məruzə ilə çıxış etməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. "Xəyalım türk dünyasının birliyini görməkdir" fikri böyük alimin bu istiqamətdəki baxışlarının mahiyyətini ifadə edir.

## Azərbaycanla bağlanan elmi və mənəvi körpü

Aziz Sancarın Azərbaycanla əlaqələri son illərdə yalnız elmi müstəvidə deyil, insani münasibətlər baxımından da diqqət çəkir. Nobel mükafatçısı müxtəlif illərdə Azərbaycanda olmuş, ali təhsil və elmi müəssisələrdə çıxışlar etmiş, gənc tədqiqatçılarla görüşərək öz elmi təcrübəsini bölüşmüşdür. Bu görüşlərdə onun diqqət yetirdiyi əsas məsələlərdən biri gənclərin elmə marağının artırılması və təhsilin insan həyatındakı həlledici rolu olmuşdur.

2021-ci ilin dekabrında Azərbaycana səfəri zamanı Aziz Sancarın Prezident İlham Əliyevlə görüşü onun Azərbaycanla əlaqələrinin mühüm məqamlarından birinə çevrilmişdir. Prezident İlham Əliyev dünyaşöhrətli alimi qəbul edərək, Sancarın Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyinə verdiyi açıq dəstəyi və Qələbə münasibətilə Azərbaycan xalqına çatdırdığı təbrikləri yüksək qiymətləndirmişdir. Görüşdə cənab Prezident həmçinin Gəncənin raket atəşinə tutulması nəticəsində valideynlərini itirmiş uşağa Sancarın göstərdiyi yardımı böyük insanpərvərlik nümunəsi kimi dəyərləndirmişdir. İlham Əliyev Aziz Sancarı türk dünyasının böyük şəxsiyyətlərindən biri kimi səciyyələndirərək Azərbaycan xalqının ona görkəmli alim və vətənpərvər ziyalı kimi yüksək hörmət bəslədiyini vurğulamışdır.

2023-cü il noyabrın 29-da isə AMEA-nın Ümumi yığıncağında professor Aziz Sancar akademiyanın fəxri üzvü seçilmiş, 2024-cü il iyunun 3-də Bakıda AMEA-nın Rəyasət Heyətinin binasında keçirilmiş xüsusi tədbirdə ona fəxri üzvlük diplomu və medalı təqdim edilmişdir. Tədbirdə Aziz Sancarın səsləndirdiyi fikirlər isə bu münasibətlərin yalnız elmi əməkdaşlıq çərçivəsində qalmadığını göstərmişdir. Azərbaycanda ona həmişə böyük hörmət və ehtiram göstərildiyini bildirən alim burada olmaqdan Türkiyəyə gəlmək qədər sevinc duyduğunu söyləmiş və "Azərbaycan mənim üçün Türkiyə qədər önəmlidir" fikrini ifadə etmişdir.

2024-cü il səfəri Aziz Sancar üçün Azərbaycan elminin canlı mənzərəsi ilə yaxından tanış olmaq baxımından da xüsusi əhəmiyyət daşımışdır. Nobel laureatı AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutuna (hazırda "Molekulyar Biologiya İnstitutu" PHŞ) baş çəkərək burada aparılan işlərlə yerindəcə tanış olmuşdur. Professora Genomun quruluşu və ekspressiyası, Hüceyrənin membran sistemləri, Bioadaptasiya və Populyasiya genomikası laboratoriyalarında aparılan araşdırmalar təqdim edilmişdir.

Nobel laureatının xüsusilə gənc tədqiqatçılara ünvanladığı fikirlər diqqət çəkmişdir. O, institutun gənc alimlərinin gələcəkdə mühüm nəticələr əldə edəcəklərinə, onların həm Azərbaycana, həm də daha geniş mənada türk dünyasına və bütövlükdə insanlığa töhfə verə biləcəyinə inamını ifadə etmişdir. Böyük alim görüşün sonunda instituta "Aziz Sancar: hayatı ve bilimi" adlı kitab hədiyyə etmişdir.

Həmin gün Bakıda iki fərqli coğrafiyada formalaşmış, lakin eyni fundamental suala (canlı aləmin molekulyar əsaslarını necə anlamaq olar?) cavab axtaran elmi ənənələr qarşılaşırdı: bir tərəfdə DNT-nin reparasiyası və hüceyrənin daxili mexanizmləri üzrə dünyaşöhrətli Sancar məktəbi, digər tərəfdə isə Azərbaycanda akademik Cəlal Əliyevin formalaşdırdığı molekulyar biologiya məktəbi.

Bu qarşılaşmanın başqa bir mənəvi tərəfi də vardır. Professor Aziz Sancarın və akademik Cəlal Əliyevin elmi yolları müxtəlif istiqamətlərdə inkişaf etsə də, onları birləşdirən mühüm ortaq xətt mövcuddur: fundamental biologiyaya dərin maraq, genetika və molekulyar biologiyanın imkanlarına inam və elmi məktəbin davamlılığını təmin edəcək yeni nəsil tədqiqatçıların yetişdirilməsinə verilən xüsusi dəyər. Bu baxımdan, institutdakı görüşlər iki elmi irs və iki nəsil arasında qurulan intellektual körpü kimi də yadda qalmışdır.

Professor Aziz Sancarın Azərbaycan elmi ilə əlaqələrinin daha bir mühüm göstəricisi onun ETN Molekulyar Biologiya İnstitutu tərəfindən nəşr olunan və bu yaxınlarda Scopus beynəlxalq indeksləmə bazasına qəbul olunmuş "Transactions of the Institute of Molecular Biology & Biotechnologies" (TIMBB) jurnalının Redaksiya heyətinin fəxri üzvü olmasıdır. Bu fakt TIMBB-nin beynəlxalq elmi əlaqələrinin genişlənməsi və nüfuzunun artması baxımından diqqətəlayiqdir.

## Elm insanlığa xidmət etməlidir

Aziz Sancarın elmi dünyagörüşünü ən yaxşı ifadə edən fikir onun 2024-cü ildə AMEA-da səsləndirdiyi tezisdir: "Elm insanlığa, bəşəriyyətə xidmət etməlidir". Alimin DNT-nin bərpası üzrə fundamental araşdırmaları bunun canlı nümunəsidir.

Lakin Sancarın missiyası laboratoriya ilə bitmir. O, elmi biliklə yanaşı, elm mədəniyyətinin də yayılmasını vacib sayır. Türk dünyasında elmi əlaqələrin gücləndirilməsi, gənc tədqiqatçıların dəstəklənməsi və ortaq elmi potensialın daha səmərəli istifadə olunması barədə çağırışları onun bu düşüncəsinin davamıdır.

Savurda sadə bir ailədə başlayan yolçuluq dünyanın ən yüksək elmi mükafatlarından birinə qədər uzanmışdır. Bu həyat hekayəsi göstərir ki, insanın yola haradan başladığı onun haraya gedəcəyini müəyyən etmir. Həlledici olan bilik axtarışına sədaqət, elmi cəsarət və öyrənməkdən heç vaxt vaz keçməməkdir.

Aziz Sancarın 80 illik ömür yolu məhz bu həqiqətin canlı nümunəsidir.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

# Şərqin Orta əsr filosofunun izi ilə

## Yusif Qarabaği kimdir və Özbəkistana necə gedib çıxıb

**Yusif Qarabaği adı əsrlər əvvəl Qarabağdan çıxaraq Səmərqənd və Buxaranın elm məclislərinə qədər gedib çatan böyük Azərbaycan filosofudur. O, dövrünün aparıcı alimləri sırasında fəlsəfə və astronomiya daxil bir çox elm sahəsində dərin biliyi ilə seçilirdi. Yusif Qarabağinin elmi nüfuzu o qədər böyük idi ki, adı Şərqin məşhur elm və mədəniyyət mərkəzlərində hörmətlə çəkilir, əsərləri uzun illər mədrəsələrdə öyrənilirdi.**

Təəssüf ki, bu gün böyük alimin adı geniş ictimaiyyətə kifayət qədər tanış deyil. Halbuki Yusif Qarabağinin həyat və yaradıcılığına nəzər saldıqca, Azərbaycanın zəngin, lakin zamanla kölgədə qalmış intellektual irsinin daha bir mühüm səhifəsi üzə çıxır.

* * *

"Böyük axund"... "Alimlərin sultanı"... "Fazillərin sübutu"... "Bilik səmasında on dörd gecəlik bədirlənmiş ay"... Bu sözlər adi bir alim haqqında deyil. Bu sözlər XVII əsrin mürəkkəb, ziddiyyətli və keşməkeşli Şərq dünyasında öz ağlı, biliyi və iradəsi ilə seçilən bir Azərbaycan filosofu haqqında deyilib.

Onun adı Mövlanə Yusif Qarabağidir. Və insan istər-istəməz düşünür: necə oldu ki, vaxtilə Səmərqənd və Buxara alimlərinin qarşısında baş əydiyi, əsərləri mədrəsələrdə əsrlərlə dərs vəsaiti kimi istifadə olunan, Şərqin böyük elm adamlarının əsərlərinə şərhlər yazan bu şəxs bu gün bizim yaddaşımızda bu qədər az yaşayır?

Bəlkə də Yusif Qarabağinin taleyi elə özünün yaşadığı dünyanın taleyinə bənzəyirdi - böyük, zəngin, amma zamanın tozuna qərq olmuş...

## Qarabağdan Şərqin elm zirvələrinə

Yusif Məhəmmədcan oğlu Qarabağinin XVI əsrin ikinci yarısında Qarabağda dünyaya gəldiyi bildirilir. Mənbələrdə onun doğum yeri və tarixi barədə müxtəlif məlumatlar mövcuddur. Bəzi məlumatlara görə, o, 1562-1563-cü illərdə Qarabağda, digər mənbələrə görə isə 1570-ci ildə Bərdə yaxınlığındakı Mehribanlı kəndində anadan olub. Ancaq bir həqiqət dəyişmir: o, Qarabağın yetirdiyi böyük zəka sahiblərindən biri idi.

İlk təhsilini doğma yurdda alan Yusif yeniyetmə yaşlarında Şirvana göndərilir. Burada dövrünün tanınmış alimlərindən dərs alır. Onun elmə qeyri-adi marağı müəllimlərinin diqqətindən yayınmır. İstedadı və biliyə sonsuz həvəsi onu daha böyük elm ocaqlarına aparır.

Beləcə, Yusif Qarabağinin həyatında yeni bir səhifə açılır. O, dövrünün böyük filosoflarından Mirzəcan Şirazinin yanında təhsil alır. Riyaziyyat, astronomiya, tibb, məntiq, fəlsəfə və digər elmləri öyrənir. Lakin onun düşüncə dünyasının əsas istiqamətini fəlsəfə müəyyən edir.Yusif artıq, sadəcə, bir tələbə deyildi. O, öz müəlliminin ən istedadlı davamçılarından birinə çevrilirdi.

## Mühacir alim

XVI əsrin sonları Şərq üçün asan zamanlar deyildi. Dini-siyasi qarşıdurmalar, məzhəb çəkişmələri, hakimiyyət savaşları alimlərin və mütəfəkkirlərin həyatına da təsirsiz ötüşmürdü. Belə bir mühitdə Mirzəcan Şirazi və onun tələbəsi Yusif Qarabaği mühacirət etmək məcburiyyətində qalırlar.

İranı tərk edib Hindistana gedirlər. Bir müddət sonra isə yolları Mərkəzi Asiyanın böyük elm və mədəniyyət mərkəzləri - Səmərqənd və Buxaradan keçir. Bəzən insan doğulduğu torpaqdan uzaq düşür, amma özünü itirmir. Əksinə, özünü daha geniş bir coğrafiyada tapır.Yusif Qarabağinin taleyi də belə olur.

## "Böyük axund"

Səmərqənd və Buxarada Yusif Qarabağinin şöhrəti sürətlə yayılır. Mədrəsələrdə dərs deyir, alimlərlə elmi mübahisələr aparır, fəlsəfi məsələləri araşdırır. Onu "Böyük axund" adlandırırlar. Bu, sadəcə, bir ləqəb deyildi. Bu ad onun biliyinə, elmi nüfuzuna verilən qiymət idi.

Yusif Qarabaği Səmərqənddə Hüseyniyə xanəgahında yaşayır. Dövrünün məşhur alimləri və filosofları ilə ünsiyyət qurur. Əsərlər yazır, əvvəlki böyük mütəfəkkirlərin irsinə müraciət edir, onların fikirlərini təhlil və şərh edir.

Onun elmi maraqları yalnız bir sahə ilə məhdudlaşmırdı. Fəlsəfə, məntiq, ilahiyyat, hüquq, astronomiya, tibb... Yusif Qarabaği üçün elm bütöv bir kainat idi.

## Buxarada bir kitabxana və bir ömür

Sonralar onun yolu Buxaraya düşür. Burada Yusif Qarabağinin həyatında mühüm dönüş baş verir. Buxaranın hökmdarı Bahadur xan alimlərə və şairlərə xüsusi diqqət göstərirdi. Elm və sənət adamlarını saraya dəvət edir, onların yaradıcılığı üçün şərait yaradırdı.

Yusif Qarabaği də sevimli müəllimi Mirzəcan Şirazi ilə birlikdə Buxaraya köçür. Burada alimlə hökmdar arasında dostluq yaranır. Qarabağinin biliyi, dünyagörüşü və şəxsiyyəti Bahadur xanın böyük rəğbətini qazanır. Və 1619-cu ildə onun şərəfinə böyük bir kitabxananın tikdirilməsi haqqında məlumatlar meydana çıxır. Bu kitabxana, sadəcə, kitabların toplandığı bir məkan deyildi. Bura elmin nəfəs aldığı bir mərkəz idi. Fəlsəfə, ilahiyyat, astronomiya və digər elm sahələri üzrə müzakirələr keçirilir, alimlər burada fikir mübadiləsi aparırdılar. Yusif Qarabaği isə həmin elmi mühitin aparıcı simalarından biri idi.

Burada o, Fərabi, İbn Sina, Bəhmənyar, Biruni, Tusi, Qəzvini, Dəvvani, Taftazani ilə yanaşı Aristotel, Platon, Pifaqor və Sokrat kimi dünya fəlsəfi fikrinin nəhənglərinin irsinə müraciət edir.

Bu adların arasında Qarabağ adının çəkilməsi təsadüfi deyil. Bu, Qarabağın yalnız şairlər, musiqiçilər və sərkərdələr deyil, həm də filosoflar yetişdirən bir torpaq olduğunu göstərən tarixi həqiqətlərdən biridir.

## Dünyanı bütöv görən filosof

Yusif Qarabağinin fəlsəfi baxışlarında varlıq, insan, təbiət, ruh, idrak, kainat və Allah münasibətləri mühüm yer tutur. O, dünyanı ayrı-ayrı hissələrin mexaniki toplusu kimi deyil, qarşılıqlı əlaqədə olan bütöv bir sistem kimi düşünürdü. Təbiət və insan arasındakı münasibəti tam və hissə, tək və cəm arasındakı münasibətlə müqayisə edirdi. Onun fəlsəfəsində insanın düşünməsi, dərk etməsi, ağıl və hissin münasibəti xüsusi əhəmiyyət daşıyırdı.

Bu baxımdan, Qarabağinin əsərlərində dövrünün fəlsəfi sərhədlərini aşan bir düşüncə çevikliyi görünür. O, hazır cavablarla kifayətlənmirdi. Sual verirdi, şübhə edirdi, araşdırırdı, mübahisə edirdi… Və ən başlıcası - düşünürdü və düşündürürdü. Bəlkə də böyük filosofu böyük edən ilk növbədə elə budur.

## "Alimlərin sultanı"

Türküstanın məşhur təzkirəçisi Mir Şərif Seyid Xacə Raqemi Yusif Qarabağini heyranlıqla təsvir edirdi: *"Alimlərin sultanı, fazillərin sübutu olan Mövlanə Yusif Qarabaği..."* Raqemi onu elm səmasında "on dörd gecəlik ay"a bənzədirdi.

Bu ifadə təsadüfdən yaranmayıb. Çünki Qarabaği artıq yalnız bir şəhərin, bir mədrəsənin və ya bir sarayın alimi deyildi. Onun adı Yaxın və Orta Şərqin elm dairələrində tanınırdı. Onunla elmi mübahisəyə girənlərin bir qismi məğlub olur, bir qismi isə filosofun fikirlərini tənqid etməyə çalışırdı. Amma böyük zəkanın qarşısını nə tənqid, nə paxıllıq, nə də zaman ala bilir.

## Bir alimin 24 əsəri

Bu gün Yusif Qarabağinin irsini araşdıranlar üçün ən qiymətli mənbələrdən biri Özbəkistan Elmlər Akademiyasının Biruni adına Şərqşünaslıq İnstitutunun Əlyazmalar Fondunda qorunan əsərləridir. Burada onun 24 traktatının saxlanıldığı bildirilir. Bu əsərlər fəlsəfə, məntiq, ilahiyyat, hüquq, təfsir, astronomiya və digər sahələri əhatə edir. Onların arasında "Risalə Xəlvatiyyə", "Fi tə'rifil-ilm", "Şərhu isbatil-vacib", "Xəşiyət şərhil-hikmət", qiblənin istiqamətinin müəyyənləşdirilməsinə həsr edilmiş riyazi traktat və müxtəlif təfsirlərə yazılmış şərhlər vardır.

Siyahıya baxarkən bir daha aydın olur ki, Qarabaği bir sahənin alimi deyildi, o, ensiklopedik düşüncəyə malik mütəfəkkir idi.

Tibbə də müraciət edirdi. İbn Sinanın məşhur "Qanun" əsərinə yazdığı şərhlərdən həkimlərin də bəhrələndiyi bildirilir. Hüquq və dövlət idarəçiliyi haqqında əsərləri isə dövrünün hakimləri və dövlət adamları üçün əhəmiyyət daşıyırdı.

## Bəs biz onu niyə unutduq?

Ən ağrılı sual da budur. Bir vaxtlar Buxara və Səmərqənddə "Böyük axund" adlandırılan, "Alimlərin sultanı" kimi təqdim edilən, əsərləri Mərkəzi Asiya mədrəsələrində əsrlər boyu istifadə olunan bir Azərbaycan filosofunun adı niyə bu gün geniş ictimaiyyətə tanış deyil?

1928-ci ildə sovet şərqşünası A.A.Semyonov onun haqqında məqalə yazaraq Yusif Qarabağini "unudulmuş filosof" adlandırmışdı.

Aradan təxminən bir əsr keçib. Amma bu söz hələ də adamı düşündürür. Bəlkə biz onu həqiqətən unutmuşuq? Bəlkə tariximizin bəzi səhifələrini özümüz bağlamışıq? Bəlkə də Qarabağinin əsərlərinin bir hissəsi uzaq kitabxanalarda, ərəb və fars dillərində əlyazmaların arasında öz oxucusunu gözləyir? Əgər belədirsə, həmin əlyazmalar, sadəcə, kağız parçaları deyil. Onlar bizim intellektual keçmişimizin izləridir.

## Qarabağ möhürü

Bir neçə il əvvəl Daşkənddə XVI əsrin sonu - XVII əsrin əvvəllərində Türküstanın fəlsəfi fikir tarixinə həsr olunmuş konfransda Yusif Qarabağinin adı çəkilir. Məruzəçidən onun milliyyəti soruşulur. Cavab isə düşündürücü olur: "Əgər özbək deyilsə, deməli, tacikdir". Amma onun adının sonunda "Qarabaği" yazılırdı. Bu kiçik bir söz kimi görünə bilər. Əslində isə elə deyil.

Orta əsr və erkən yeni dövr Şərqində nisbət insanın mənşəyini, bağlı olduğu yeri göstərən mühüm göstəricilərdən biri idi. "Qarabaği" adı isə bir coğrafiyanın yaddaşda qalan möhürü idi.

Və bu möhür əsrlər keçsə də silinməmişdi.

## Ölüm və son yol

Yusif Qarabaği ömrünün son illərini Buxarada keçirdi. Mənbələr onun ölüm tarixini müxtəlif göstərir: 1644-1645-ci illər və 1647-ci il. O, Buxara yaxınlığındakı Səfid-Muy kəndində dəfn edilmişdi. Sonralar isə, verilən məlumatlara görə, 1690-cı ildə qəbri Bədəxşana köçürülmüş və sevimli müəllimi Xəlilullah Bədəxşaninin türbəsinin yanında torpağa tapşırılmışdır.

İnsan ölür. Amma fikir ölmür. Kitablar yanır, şəhərlər dəyişir, dövlətlər süqut edir, sərhədlər yenidən çəkilir. Lakin bir insanın düşüncəsi əsrlərdən keçə bilir. Yusif Qarabağinin taleyi bunun sübutudur.

## İndi sıra bizdədir

Bu gün Daşkənddə, Biruni adına Şərqşünaslıq İnstitutunun Əlyazmalar Fondunda Yusif Qarabağinin 24 traktatının qorunduğu bildirilir. Bu əsərlərin surətlərinin Azərbaycana gətirilməsi, tərcümə edilməsi, elmi dövriyyəyə daxil edilməsi və geniş oxucuya çatdırılması son dərəcə qiymətli təşəbbüs olardı. Çünki millətin yaddaşı yalnız heykəllərlə qorunmur.

Yaddaş kitablarla, əlyazmalarla, araşdırmalarla qorunur… Və ən əsası xatırlamaqla qorunur. Yusif Qarabaği əsrlər əvvəl Qarabağdan çıxıb Şərqin böyük elm mərkəzlərinə gedən bir alim idi.

O, ömrünü biliyə həsr etdi, dünyanın müxtəlif şəhərlərində yaşadı, müəllimlərindən öyrəndi, özü müəllim oldu, filosoflarla mübahisə etdi, kitablar yazdı, şərhlər yaratdı, elm adamlarına yol göstərdi.

Və nəhayət, tarix onu bir müddət unutdu. Amma tamamilə yox, çünki Qarabaği adı qaldı, əsərləri qaldı, fikirləri qaldı, əlyazmaları qaldı. Bu gün onun izi bizi yenidən keçmişimizin dərinliklərinə çağırır. Bəlkə də Yusif Qarabağini yenidən kəşf etmək yalnız bir filosofu xatırlamaq deyil. Bu, Azərbaycanın intellektual tarixinin unudulmuş bir səhifəsini yenidən açmaqdır. Remarkın sözləri ilə desək: "İnsan geri çəkilmədikcə taleyindən güclü olacaq".

Yusif Qarabaği geri çəkilmədi. Nə məzhəb qarşıdurmalarından, nə mühacirətdən, nə yad diyarlarda yaşamaq məcburiyyətindən, nə də zamanın amansızlığından. Bəlkə də elə buna görə onun səsi bu gün, dörd əsr sonra da bizə gəlib çatır. Sadəcə bir sualla: "Məni nə vaxt xatırlayacaqsınız?"

***Qulu KƏNGƏRLİ,***
***Özbəkistanın "Altın qalam" mükafatı laureatı***

*Buxara*





# Vətən deyəndə...







# Şuşanın daşları da bizə əmanətdir

**Şuşaya gedən turistlərdən bəzilərinin şəhərin qayaları üzərinə öz adlarını yazması cəmiyyətdə haqlı narazılıq doğurub. Söhbət, sadəcə, bir neçə daşın üzərinə nə isə yazılmasından getmir. Məsələ daha böyük və ağrılıdır: söhbət tariximizin, milli yaddaşımızın və şəhidlərimizin qanı ilə azad edilmiş müqəddəs bir məkanın qorunmasından gedir.**

Şuşa adi turizm məkanı deyil, həm də xalqımızın yaddaşında xüsusi yeri olan, hər daşı, qayası, küçəsi tarix danışan müqəddəs şəhərdir. Bu şəhərin azadlığı uğrunda Azərbaycan əsgəri canından keçib, qan töküb. Bu gün Şuşanın küçələrində rahat addımlamaq, Cıdır düzünün seyrinə çıxmaq, şəhərin gözəlliyinə tamaşa etmək bizə zövq verə bilər. Amma bunun arxasında böyük bir qəhrəmanlıq, ağır itkilər və şəhidlərin əmanəti dayanır. Məhz buna görə də Şuşaya səfər edən insan ilk növbədə turist deyil, bu müqəddəs torpağın sahibi olduğunu xatırlamalıdır.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi də məsələ ilə bağlı ictimaiyyətə müraciət edərək bildirib ki, belə hallar ilk dəfə baş vermir. Maarifləndirmə tədbirlərinə və cərimələrə baxmayaraq, bəzi şəxslər qaya daşlarını yazılarla korlayırlar. Qurum hər bir daşı üzərində güllə və qan izlərinin olduğu Şuşada əhalini belə hallara qarşı birgə mübarizəyə çağırıb.

"Qarabağ" ordenli şəhid baş leytenant Kamran Kazımovun atası Qurbanəli Kazımovun sözlərində ata ağrısı ilə yanaşı, bütöv bir xalqın yaddaşını qorumaq çağırışı səslənir. Onun fikrincə, işğaldan azad olunmuş torpaqların hər qarışı müqəddəsdir, burada Vətən uğrunda canından keçən oğullarımızın qanı var. Qurbanəli kişi deyir ki, Şuşanın qəhrəmanlıq tariximizin ən şanlı səhifələrindən biri olduğunu bilməyən adam azdır. Belə bir şəhərdə qayaların üzərinə ad yazmaq insanın həmin tarixi dərk etmədiyini göstərir. "Bu qayaların üzərinə adlarını yazanlar düşünməlidirlər ki, həmin qayaların üzərinə bu torpaqları azad edən oğullarımızın qanı tökülüb, o qayaların üstündə igidlərimiz can verib. O qayalarda, torpaqlarda, hər dalanda, hər evdə tarix yazılıb", - deyən Qurbanəli Kazımov belə hərəkətlərin yolverilməz olduğunu vurğulayır.

Birinci Qarabağ müharibəsi veteranı Məhəmmədəli Əliyevin yanaşması isə məsələnin başqa bir mühüm tərəfinə diqqət çəkir. Deyir ki, Şuşanın tarixi məkanlarında, qayalarında, binalarında və digər obyektlərində şəxsi adların, müxtəlif yazıların görünməsi mənəvi məsuliyyət məsələsidir. Çünki bir insanın "mən də burada olmuşam" düşüncəsi ilə yazdığı ad gələcək nəsillər üçün həmin məkanın tarixinə heç nə vermir, əksinə, tarixi mühiti korlayır: "Bu hərəkəti edənlər düşünməlidirlər ki, Şuşada olduqlarını "göstərməklə" nə tarixiləşmək olar, nə də yaddaşlarda qalmaq, əksinə, bunu etməklə vandallığı nümayiş etdirmək mümkündür".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# 19 illik əbədi ömür

**44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında erməni qəsbkarlarını diz çökdürərək tarixi Zəfər qazandı. Ağır məğlubiyyətlə üzləşən erməni quldurları ağ bayraq qaldıraraq təslim oldular. 30 ilə yaxın işğalda qalmış Qarabağ və ətraf rayonlar işğalçılardan təmizləndi.**



Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdən geri qayıtmayanlar da oldu. Bu oğullar yurdumuzun azadlığı naminə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Kürdəmir rayonunun Ərəbqubalı kəndindən müharibəyə yollananlardan da 3 nəfəri geri dönmədi. Onların evlərinin qapısını kədərli xəbər döydü.

Ülvi Azayev qısa, amma şərəfli bir ömür yaşadı. 2001-ci il dekabrın 4-də anadan olmuşdu. Orta təhsilini bitirdikdən bir müddətdən sonra - 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarına çağırılmışdı. Əyninə hərbi forma geyinib xidmətə başladığı ilk günlərdən Ülvi hərbi bilikləri dərindən öyrənmişdi. Təlimlər zamanı əsgər kimi üzərinə düşən tapşırıları yerinə yetirmişdi. Yorulmaq bilmədən döyüş təcrübəsini artırmışdı. Sanki özünü qarşıdakı döyüşlərə hazırlamışdı. Nizam-intizamı ilə həm əsgər dostlarının, həm də komandirlərinin rəğbətini qazanmışdı.

Torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başlayanda onun xidmət etdiyi bölük də döyüşlərə qatılmışdı. Qələbə əzmi ilə əməliyyatlara atılan Ülvinin döyüş yolu Talış kəndindən başlamışdı. İlk əməliyyatlardan cəsarətlə vuruşan Ülvi silahının nişangahına tuş gələn düşmənləri sərrast atəşlə məhv edirdi. Bir vaxtlar təlimlərdə qazandığı hərbi təcrübə əlindən tuturdu. Döyüşdən-döyüşə təcrübəsi artan Ülvi düşmən üzərinə daha inamla, daha əzmlə addımlayırdı.

Getdikcə ağır itkilər verib zəifləyən erməni işğalçıları döyüşçülərimizin qarşısında dayana bilməyib geri çəkilirdi. Addım-addım torpaqlarımız ermənilərdən azad olunurdu. Oktyabrın 2-si idi. Ağdərə istiqamətində gərgin döyüşlər gedirdi. Həmşəki kimi əsgər Ülvi Azayev komandirin verdiyi döyüş tapşırığına uyğun olaraq özünə əlverişli mövqe tutub vuruşurdu. Atəş səslərindən yer-göy lərzəyə gəlmişdi. Geri çəkilən işğalçılar qəflətən dayanıb müqavimət göstərməyə başladılar. Bu məqamda Ülvi cəld hərəkətlə özünə əlverişli mövqe seçmək istəyərkən düşmən gülləsinə tuş gəldi. Ağır yaralandı. Həkimlərin də ona yardım etmək cəhdi bir nəticə vermədi. Ülvi Azayev şəhid oldu. İki gündən sonra - oktyabrın 4-də yaxınları, qohumları və ictimaiyyətin nümayəndələri onu Ərəbqubalı kənd qəbiristanlığında torpağa tapşırdılar. Ölümündən sonra o, "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görüldü.

Ülvi Azayev cəsarəti və hünəri ilə adını qəhrəmanlıq tariximizə yazdı. Heç nədən qorxmadan, çəkinmədən ata-babalarımızın qəhrəmanlıq yolu ilə sonacan inamla addımladı. İgidliyi ilə düşmənə meydan oxudu, Azərbaycan əsgərinin necə igid olduğunu göstərdi. Şəhidlik elə bir əlçatmaz, ünyetməz zirvədir ki, hər insan bu məqama yetişə bilmir. Bu zirvə yalnız Ülvi kimi təmiz, pak, vətəni canından da çox sevən, onun yolunda vuruşan, döyüşən seçilmiş bəndələrə qismət olar. Ülvi Azayev də bu zirvəni cəsarəti və qəhrəmanlığı ilə əbədi olaraq fəth etdi.

Xalqımız Vətən torpaqlarının azadlığı uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlmiş Ülvi Azayev kimi oğulların xatirəsini həmişə uca tutur, hörmətlə anır, ehtiramla yad edir. Çünki bu oğullar Vətən torpaqlarının hər qarışı uğrunda cəsarətlə vuruşmuş, yurdumuzu göz bəbəkləri kimi qorumuşlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Şəmkirin "sonbeşik" şəhidi

**Mərahim Aslan oğlu Abdullayev 2020-ci ilin sentyabrında başlayan və Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində Şəmkirin Keçili kəndindən şəhadətə yüksələn 6 şəhiddən biri, yaşca ən kiçiyidir.**

O, 2002-ci il martın 27-də dünyaya göz açıb. Atası Aslan fərdi təsərrüfatçı, anası Susanna evdar qadındır. Orxan və İbrahim adlı özündən böyük iki qardaşı var. Şəhidimizin təhsil aldığı orta məktəbin müəllimi Fənarə Qəhrəmanova Mərahimi belə xatırlayır: "O, nizam-intizamı ilə yoldaşlarından fərqlənirdi. İdmana meyilli, vətənpərvər uşaq idi, həmişə yaşıdlarına əsgərliyə gedəcəyindən danışar və xidmətdən sonra hərbçi kimi Milli Ordu sıralarında qalıb ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması uğrunda mübarizədə iştirak etmək istədiyini bildirərdi".

Mərahim Abdullayevlər ailəsinin sonbeşiyi idi. Sakit davranışı, mehribanlığı ilə yanaşı, dəli-doluluğu da vardı. Əldə-ayaqda olan uşaq kimi həmişə hamının köməyinə çatar, ətrafındakılara yardımçı olmağı özünə borc bilərdi. Qardaşı İbrahim deyir: "Nə vaxt televizoru açsaydı, hərbi verilişləri axtarar, tapanda onlara baxardı. Bir dəfə dedi ki, mən əsgər gedəcəyəm, vəhşi ermənilərlə son nəfəsimə kimi vuruşacağam, şəhid olacağam. Buna görə onunla mübahisə edərdim. Kim istəyər ki, qardaşı torpaq altında yatsın?!"

Mərahimin 18 yaşı tamam olanda kənddə bəzi həmyaşıdlarını hərbi xidmətə çağırsalar da, ona bildiriş gəlmirdi. Buna görə o, Səfərbərlik və



Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir Rayon İdarəsinə gedib və tələb edib ki, onu da hərbi xidmətə göndərsinlər. Beləliklə, istədiyinə nail olub. Mərahim Beyləqan rayonu ərazisindəki "N" saylı hərbi hissədə xidməti borcunu yerinə yetirib. Minaatan batareyada baş nişançı olub, intizamı, bacarığı ilə seçilib. Hərbi xidmətinin ilk 5 ayından sonra Vətən müharibəsi başlayıb və o, könüllü ön cəbhəyə yollanıb.

Mərahim Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Düşmən mərmisinə tuş gəlmiş neçə-neçə yaralı əsgərimizin, şəhidimizin arxaya gətirilməsində fədakarlıq göstərib. Təəssüf ki, bu cəsur döyüşçü 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Mərahim hər dəfə evlə - doğmaları ilə danışanda "heç narahat olmayın, nümunəvi xidmətimə görə qısamüddətli məzuniyyət gözlənilir. Allah qoysa, yaxın günlərdə gələcəyəm", - deyirmiş. Lakin qayıdan bayrağa sarılmış nəşi olub. Şəhid olmazdan bir gün əvvəl son dəfə valideyinləri ilə danışıb. Deyib ki, ordumuzun uğurları böyükdür, düşmənin sonuna çıxırıq, az qalıb. Qələbə qazanacağıq!

Dediyi kimi də oldu. Azərbaycan tarixdə əvəzi olmayan qələbə qazandı. Bu qələbənin əldə edilməsində iştirakı olan Mərahim Abdullayev şəhadətindən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

İndi Keçili kəndində uşaqdan böyüyə hamı Mərahimin döyüş yolu, qəhrəmanlığı ilə fəxr edir. Ad və anım günlərində, eləcə də milli bayramlarda həmyaşıdları, onu yaxından tanıyanlar, döyüşçü yoldaşları, məktəblilər, ictimaiyyətin və rayon hərbi komissarlığın nümayəndələri 18 yaşlı qəhrəman şəhidi ehtiramla yad edir, məzarı üstünə gül-çiçək qoyur, ruhuna dualar oxuyurlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# *Vətən müharibəsi veteranı:* "Hər kəs Şuşanın tarixi simasının qorunmasına öz töhfəsini verməlidir"

**"Şuşa Azərbaycan xalqının tarixi və mədəni yaddaşında xüsusi yer tutur. Şəhərin hər bir daşı, qayası xalqımızın tarixindən xəbər verir. Şuşaya gələn hər şəxs bu tarixi məkana böyük hörmətlə yanaşmalı, şəhərin təbiətinə və tarixi abidələrinə diqqətlə münasibət göstərməlidir. Müqəddəs sayılan daşların üzərində nəsə yazmaq birmənalı olaraq yolverilməzdir. O daşların hər biri şəhidlərimizin izidir. Şəhidlərimizin qanı bu torpağın hər qarışına, hər daşına hopub".**

Bunu AZƏRTAC-a açıqlamasında **İkinci Qarabağ müharibəsi veteranı Elnur QULİYEV** söyləyib.

O qeyd edib ki, Qarabağ uğrunda canından keçən şəhidlərin və bu torpaqların azadlığı uğrunda mübarizə aparan insanların xatirəsi hər zaman uca tutulmalıdır. Şəhərə gələn turistlər və yerli sakinlər Şuşanın tarixi simasının qorunmasına öz töhfələrini verməlidirlər.

Əslən şuşalı olan E.Quliyev deyib: "Mənim uşaqlığım Şuşada, Cıdır düzündə keçib. Bu yerlərin hər bir daşı mənim üçün müqəddəsdir. Şuşa bizim üçün, sadəcə, şəhər deyil. Bura tariximiz, mədəniyyətimiz və şəhidlərimizin əmanətidir. Buradakı hər bir tarixi daş qorunmalıdır. O daşların hər biri şəhidlərin izidir. Onların adları daşların üzərinə deyil, tarixə yazılıb. İnsanlar Şuşaya öz evləri kimi yanaşmalıdırlar".



# Şirxanın son arzusu

**Yurd həsrəti ən böyük dərdinə, könül yarasına çevrilmiş ailənin övladı idi. Valideynləri 1992-ci ildə Ermənistanın işğalı nəticəsində doğma el-obasından, isti ocağından ayrı düşmüşdü.**



## Torpaq həsrəti

1995-ci ilin sentyabrında məcburi köçkün ailəsində dünyaya göz açan Şirxan Quliyev ata-baba yurdu Xocavəndi qohumlarının qüssə, ələm dolu söhbətlərindən tanıyıb. O yerlərin həsrəti və düşmən əsarətindən qurtulması arzusu ilə böyüyüb. Ona görə də kiçik yaşlarından hərbçi olmaq istəyib.

Çəkdikləri çətinliklərə, yurd nisgilinə baxmayaraq Şirxan Quliyevin ata-anası doğma yurdlarına qayıdacaqlarına heç vaxt inamlarını itirməmişdilər. Şirxan da bu ruhda boya-başa çatmışdı. İnanmışdı ki, Azərbaycanın əzəli əraziləri olan Qarabağ və Şərqi Zəngəzurun Ermənistan silahlı qüvvələrinin işğalından azad ediləcəyi gün gələcək. Uşaqlıq illərindən onu da başa düşüb ki, yalnız arzulamaq, inam bəsləmək azdır. Vətən torpaqlarını düşmən əsarətindən xilas etmək və qorumaq üçün hərbi sirlərə yiyələnmək, silah-sursatdan istifadə etməyi bacarmaq lazımdır.

Şirxan Quliyev bu arzu və düşəncə ilə 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin əsgəri oldu. 2015-ci ildə müddətli həqiqi hərbi xidmətini başa vurdu. Ancaq Vətənə bağlılığı onu ordudan ayrılmağa qoymadı. 2016-cı ildə müddətdən artıq həqiqi hərbi xidmətə yollandı.

Həmin il aprelin 1-dən 2-nə keçən gecə cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlərdə Vətən qarşısındakı borcunu şərəflə yerinə yetirən hərbçilər sırasında Şirxan Quliyev də var idi. Aprel döyüşləri onun hərbçi kimi keçdiyi ilk ciddi sınaqlardan biri idi. Azərbaycan Ordusunun atıcısı Şirxan verilən tapşırıqları mətanət və cəsarətlə yerinə yetirirdi.

## Böyük qələbələrə doğru

Aprel döyüşləri zamanı Cəbrayılın Lələtəpə istiqamətində bir sıra mühüm mövqelər, o cümlədən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusunun nəzarətinə keçsə də, son qələbə hələ irəlidə idi.

Vətən müharibəsi başlayanda Şirxan da döyüşlərə qatılıb. Azərbaycan Ordusunun tərkibində Cəbrayıl, Füzuli, Qubadlı və Şuşa istiqamətlərində gedən döyüşlərdə rəşadət göstərib.

İllər boyu ailəsinin həsrətini çəkdiyi Qarabağ torpaqları artıq onun döyüşdüyü məkan idi. Şirxan arabir uşaqlıq illərini xatırlayır, ata-anasının qüssə, həyəcan və nisgillə təsvir etdikləri Xocavəndi də tezliklə yağılardan xilas edəcəkərini düşünürdü. Amma o, noyabrın 2-də Daşaltı uğrunda gedən vuruşda yaralandı. Buna baxmayaraq, döyüş meydanından geri çəkilmədi.

Noyabrın 7-də isə... Şuşa istiqamətində gedən döyüşlər zamanı Şirxan Quliyev qəhrəmancasına şəhid oldu. O, Beyləqandakı Xocavənd şəhərciyində dəfn edildi.

Onun Vətən qarşısındakı xidmətləri, döyüşlərdə göstərdiyi igidlik dövlət tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu Şirxan İsmixan oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şirxan Quliyev cəmi 25 il yaşayıb. Bu qısa ömrə bir ailənin yurd xiffəti, Vətənə sonsuz sevgi, hərbçi qüruru və şəhidlik ucalığı sığıb. Görməsə də, ata-baba yurdu ondan sonra düşmən tapdağından qurtulub. Bu gün həmin yerlərə həyat qayıdır. İşğalçı ermənilərin xarabalığa çevirdikləri yurd yerlərimiz yenidən abad olur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Tramp 100 il ərzində sikkə üzərində təsvir edilən ilk sağ ABŞ Prezidenti oldu

**Donald Tramp 100 il ərzində ABŞ valyutasında təsvir edilən ilk sağ ABŞ Prezidenti olub. Ölkə Zərbxanası Trampın təsvir olunduğu 1 dollarlıq kolleksiya sikkəsi buraxıb. Trampın üzünün və "Azadlıq" və "Tanrıya güvənirik" sözləri olan sikkə, ABŞ-nin 250 illiyinə həsr edilib.**



Zərbxana 25 sikkə dəstini 61 dollara satışa çıxarıb, 100 sikkədən ibarət bir çantanın qiyməti isə 154,50 dollardır. Amma buraxılışdan bir neçə saat sonra Zərbxananın veb-saytında sikkələrin "hazırda satışda olmadığı" barədə məlumat verilib.

Zərbxanadan bildirilib ki, Tramp sikkəsi "bu tarixi mərhələnin qeyd edilməsi" üçün buraxılıb və "müasir kolleksiyalara əla bir əlavə" olmaq üçün nəzərdə tutulub. Sikkə qızıl kimi görünsə də, tərkibində qızıl yoxdur. Onun 88,5 faiz mis, qalan hissəsi isə sink, manqan və nikeldir.

Xatırladaq ki, bu ilin may ayında ABŞ maliyyə naziri Skott Bessent ABŞ-nin 250 illiyi şərəfinə üzərində Donald Trampın portreti olan 250 dollarlıq əskinas buraxılacağını da açıqlamışdır. Lakin ABŞ federal qanunu insanların sağlığında təsvir olunduqları pulların bəzədilməsini qadağan edir. O səbəbdən Tramp tərəfdarları Konqresdə onun üçün istisna hal olaraq qanun layihəsi təqdim etsələr də, sənədin qəbulu dayandırılmışdır.

Yeni qanun layihəsinin buraxılması planlarını açıqlayan Skott Bessent ABŞ Prezidentinin portretinin onun sağlığında Amerika valyutasında artıq göründüyünü qeyd edib: ABŞ-nin müstəqilliyinin 150 illiyi münasibəti ilə buraxılan yarım dollarlıq sikkədə iki profil var idi - prezidentlər Kalvin Kulic və Corc Vaşinqton.

D.Trampın şəklinin valyuta üzərində yerləşdirilə biləcəyini iddia edərkən administrasiya həmçinin ABŞ-nin hazırkı liderinin ilk prezidentliyi dövründə qəbul edilmiş 2020-ci il tarixli "Dövriyyədə olan kolleksiya sikkələrinin yenidən dizaynı" qanununa istinad edir. Bu qanun sikkələrin üz tərəfində deyil, arxa tərəfində canlı şəxslərin şəkillərinin yerləşdirilməsini qadağan edir. Trampın portreti də yeni 1 dollarlıq sikkələrin üz tərəfində yerləşdirilib.

Personaj sağ ikən ABŞ valyutasında portretləri qadağan edən başqa bir qanun da var - 1866-cı ildə qəbul olunmuş Teyyer Düzəlişi. Lakin bu, əskinaslara aiddir, sikkələrə şamil edilmir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm



*- Yaşadığım evə yaxın ərazidə hündürmərtəbəli bina tikilir. Deməkolar ki, gecə səhərədək ərazidə iri maşınlarla dayanmadan iş gedir. Nəticədə sakinlərin rahatlığı pozulur. Gecə vaxtı iş getməsi qanunidirmi?*

*Bir də orada müxtəlif yaş qruplarında insanlar çalışır, aralarında yaşı az olanlar da var. Bilmək istəyirəm onlar üçün iş norması yoxdur?*

***Nərgiz ƏLİZADƏ,***
***Bakı şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, yaşayış ərazisinin bilavasitə yaxınlığında gecə saatlarında səs-küylə müşayiət olunan tikinti və ya yükdaşıma işlərinin aparılması qanunsuzdur.

Öncə gecə vaxtında işin mümkünlüyü məsələsinə toxunaraq, qeyd edirik ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə saat 22-dən səhər saat 6-dək olan müddət gecə vaxtı sayılır (maddə 97, hissə 1). Yaşı 18-dən az olan işçilər üçün isə gecə vaxtı axşam saat 20-dən səhər saat 7-dək olan müddət sayılır (maddə 254, hissə 2).

Əmək qanunvericiliyinə görə, gecə vaxtı iş vaxtı hesab edilsə də, gündüz vaxtına münasibətdə müxtəlif istisnalar nəzərdə tutulur. Məsələn, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş əmək şəraiti ağır və zərərli olan iş yerlərində, habelə xüsusi xarakterli işlərdə çalışan işçilərin gündəlik iş vaxtının ən azı yarısı gecə vaxtına düşdükdə, iş vaxtının gecə vaxtına düşən hissəsi bir saat qısaldılır (maddə 97, hissə 2). Gecə vaxtı yerinə yetirilən işlərə yaşı on səkkizdən az olan işçilərin cəlb edilməsinə yol verilmir (maddə 98, hissə 1).

Tikinti sahəsində yetkinlik yaşına çatmayanların çalışması aşkar edilərsə, bu, ciddi qanun pozuntusudur.

Hətta gecə vaxtı yerinə yetirilən iş, habelə çoxnövbəli iş rejiminə görə əməkhaqqı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş həddən aşağı olmamaqla işəgötürən tərəfindən yüksək məbləğdə ödənilir (maddə 166, hissə 1).

Gecə vaxtı səs-küyün salınmasına gəlincə, bununla bağlı inzibati məsuliyyət mövcuddur. Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 521-ci maddəsinə əsasən, mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində və digər ictimai yerlərdə gecə vaxtı saat 24-dən 7-dək səs-küy salmağa, ucadan mahnı oxumağa, musiqi alətlərini ucadan çalmağa, televizorları, radioqəbulediciləri, maqnitofonları və digər aparatları gur səslə oxutmağa, məişət səs-küyünə qarşı mübarizə tələblərini başqa üsulla pozmağa görə - fiziki şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

Bununla yanaşı, hadisə ilə bağlı mülki məsuliyyətin olması da diqqətdən qaçmamalıdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 170.2-ci maddəsinə əsasən, qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri, qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən, işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

Bu norma qonşuluq hüququnun pozulmazlığını təsbit edir və tikinti subyektinin sakinlərin sakitliyini pozmaq hesabına təsərrüfat fəaliyyəti həyata keçirməsini qəti şəkildə qadağan edir.

Qarşılaşdığınız vəziyyətlə bağlı atmalı olduğunuz bir neçə addım mövcuddur. Problemi tikinti rəhbərliyi və ya podratçı şirkətlə şifahi danışıqlar yolu ilə, qonşuluq münasibətləri çərçivəsində həll etməyə çalışın. Əgər şifahi xəbərdarlıq, yaxud ikitərəfli danışıq nəticə verməzsə, o zaman mübahisənin həlli prosesini rəsmi müstəviyə keçirə bilərsiniz. Bunun üçün ilk növbədə inzibati orqana (polis və s.) və ya məhkəməyə müraciət etməzdən əvvəl əlinizdə güclü sübutlar olmalıdır. Məsələn, tikinti və səs-küylə bağlı video və fotoşəkillər çəkin, çalışın səs aydın eşidilsin, yaxud hərəkət aydın görünsün.

Sübutlar kifayətedici qədər toplandıqdan sonra ilkin olaraq inzibati orqana - sahə müvəkkilinə müraciət edə bilərsiniz. Bu halda arzuolunmayan hərəkət məişət səs-küyünə qarşı mübarizə qaydalarının pozulması kimi qiymətləndirilə bilər. Sahə müvəkkilinə rəsmi ərizə ilə müraciət edərək profilaktik söhbət aparılmasını və qanun pozuntusunun aktlaşdırılmasını tələb edin.

Polisin tərtib edəcəyi hər hansı rəsmi sənəd (protokol, akt və s.) gələcəkdə məhkəmə üçün çox mühüm sübut olacaq. İnzibati orqana müraciətlə birlikdə, yaxud ondan sonra məhkəməyə müraciət edə biləcəyinizi unutmayın. Beləliklə iddiaçı olaraq cavabdehə (hərəkəti törədənə) qarşı "qanunsuz hərəkətlərə son qoyulması (müdaxilənin aradan qaldırılması)" tələbinə dair məhkəməyə iddia ərizəsi ilə müraciət edə bilərsiniz. Əsas tələblə yanaşı, əgər sizə müəyyən maddi ziyan dəyibsə - maddi ziyanın ödənilməsini, həmçinin qorxu, psixoloji gərginlik və rahatlığın pozulmasına görə - mənəvi ziyanın kompensasiyasını da tələb etmək hüququnuzun olması da nəzərinizdən qaçmamalıdır.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# RƏQƏMSAL DÜNYA

## Fəlakət zonalarının kiborq xilasediciləri



Avstraliyalı mühəndislər axtarış-xilasetmə əməliyyatları üçün miniatür kameralar və məsafədən idarə olunan inyeksiya sistemləri ilə təchiz edilmiş kiborq tarakanlar hazırlayıblar. Texnologiya insanların daxil ola bilmədiyi dar və təhlükəli ərazilərdə zərərçəkənlərin aşkarlanmasına və ilkin tibbi yardım göstərilməsinə hesablanıb.

Kvinslend Universiteti və Yeni Cənubi Uels Universitetinin mütəxəssislərinin birgə layihəsində Avstraliyaya məxsus "Macropanestia rhinoceros" tarakanlarından istifadə olunub. Həşəratlara yüngül elektron sistemlər, kameralar və məsafədən aktivləşdirilən inyeksiya mexanizmləri yerləşdirilib. Tədqiqatçılar tibbi müdaxilə ilə bağlı qərarların tamamilə insanların nəzarətində qalacağını bildiriblər.

Sınaqlarda kiborq həşəratlarının yaxın məsafədən inyeksiya tətbiqində uğur göstəricisi 95 faiz, naviqasiya və inyeksiyanı əhatə edən ümumi tapşırıqda isə 72 faiz olub. Avadanlıqlar çıxarıldıqdan sonra tarakanların normal həyat fəaliyyətini davam etdirdiyi bildirilib.

## Süni profillərə yeni məhdudiyyət




"Instagram" özünü real insan kimi təqdim edən süni intellekt profillərinə nəzarəti gücləndirir. Platformada indiyədək istifadə olunan "AI yaradıcısı" qeydi "AI tərəfindən yaradılmış profil" ifadəsi ilə əvəzlənəcək. Bununla istifadəçilərə səhifədəki şəxsin real deyil, süni intellektlə yaradılmış obraz olduğu daha aydın göstəriləcək.

Platforma virtual personaj olduğunu açıqlamayan hesabları avtomatik müəyyənləşdirməyə də çalışacaq. Belə profillərin paylaşımları onları izləməyən istifadəçilərə "Reels" və "Explore" bölmələrində tövsiyə edilməyəcək. Səhvən bu kateqoriyaya daxil edilən hesabların sahibləri qərardan şikayət edə biləcəklər.

Yeni qayda süni intellektdən, sadəcə, foto və video hazırlamaq üçün istifadə edən bütün hesablara şamil olunmur. Məhdudiyyət əsasən profilin mərkəzində real insan təsiri yaradan, lakin tamamilə süni intellekt vasitəsilə formalaşdırılmış virtual şəxsiyyətlərə aiddir.

## Smartfonlar üçün kamera ovçusu

**Cənubi Koreyanın KAIST İnstitutunun alimləri Sinqapur Milli Universitetinin mütəxəssisləri ilə birlikdə gizli kameraları aşkarlayan "SweepLED" sistemi hazırlayıblar. Texnologiya smartfona qoşulan LED modulunu süni intellekt əsaslı mobil tətbiqlə birləşdirir.**



Telefonun arxasına maqnitlə bərkidilən və hazırlanması təxminən 7 dollara başa gələn modul işığın istiqamətini davamlı dəyişir. Adi səthlərdəki işıq əksləri hərəkət etdiyi halda, kamera obyektivinin optik quruluşu fərqli işıq izi yaradır. Sistem həmin izi analiz edərək gizli kameranın yerini müəyyənləşdirir.

Texnologiya gizli kameraların yerləşdirildiyi 30 müxtəlif əşya üzərində sınaqdan keçirilib və 93,9 faiz dəqiqlik göstərib. Avtomatik analiz istifadəçinin otağı uzun müddət əl ilə yoxlamasına ehtiyacı da azaldır. Tədqiqatçılar bu sistemin hotellər, kirayə mənzillər, geyinib-soyunma otaqları və digər məkanlarda gizli kameraların aşkarlanmasını asanlaşdıra biləcəyini bildirirlər. Bununla belə, "SweepLED" internetə qoşulmuş təhlükəsizlik kameraları və kameralı "ağıllı eynək"lər kimi digər məxfilik risklərinə qarşı müdafiə vasitəsi deyil.

## "Acer"dən yeni noutbuk

"Acer" cəmi 799 qram çəkisi olan "Swift Blade 14" noutbukunu nümayiş etdirib. Cihazın qalınlığı 12,95 millimetrdən başlayır. Aşağı çəkinin əldə olunması üçün korpusun üst və alt hissələrində karbon lifli materiallardan istifadə edilib. Model "Intel Wildcat Lake" prosessorları ilə və 12 GB operativ yaddaşla təklif olunacaq.

Noutbukda üç USB-C portu, USB-A və 3,5 millimetrlik qulaqlıq girişi mövcuddur. Şirkət eyni zamanda 16 düymlük "Swift Air 16" modelini də təqdim edib. Bu cihazın maksimum konfiqurasiyası 16 GB operativ və 512 GB daxili yaddaşla təklif olunacaq.

"Swift Blade 14"ün dekabrda satışa çıxarılması planlaşdırılır.

## Yuxunu izləyən radar sistemi



"Anker" şirkəti IFA 2026 sərgisində istifadəçinin bədəninə sensor taxılmadan yuxunu izləyə bilən "SleepLab Pro" sistemini nümayiş etdirib. Qurğu 60 GHz-lik radar vasitəsilə bədəndəki kiçik hərəkətləri müəyyənləşdirərək nəbzi, nəfəsalma ritmini və yuxu mərhələlərini analiz edir.

Sistem yataqda iki nəfər olduqda belə əsas istifadəçinin göstəricilərini ayırd edə bilir. "SleepLab Pro" əldə etdiyi məlumatlar əsasında rahatlaşdırıcı səsləri və işıqlandırmanı da tənzimləyir. Təxminən 30 günlük istifadədən sonra cihaz insanın hansı şəraitdə daha yaxşı yatdığını öyrənərək uyğun rejimlər yaradır.

Qurğunun işləməsi üçün smartfon tələb olunmur və aylıq abunə haqqı nəzərdə tutulmayıb. Seriyanın standart "SleepLab" modelində isə radar funksiyası yoxdur. Şirkət sərgidə aktiv səsboğma texnologiyalı "Sleep 4" və "Sleep 4 Pro" qulaqlıqlarını da nümayiş etdirib. "Pro" versiyası nəbzi və ürək ritminin dəyişkənliyini ölçə bilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# IRONMAN Azərbaycanda: 10 il əvvəl başlayan yolun tarixi startı

**İlk azərbaycanlının IRONMAN finişinə çatmasından 10 il, ilk azərbaycanlı qadının bu məsafəni qət etməsindən isə 4 il sonra Azərbaycan ilk dəfə sentyabrın 5-də "IRONMAN 70.3" triatlon yarışına evsahibliyi edəcək.**



Bakı Şəhər Halqasından AZƏRTAC-a bildirilib ki, 62 ölkədən idmançının iştirak edəcəyi yarışda iştirakçılar 1,9 kilometrlik üzgüçülük, 90 kilometrlik velosiped və 21,1 kilometrlik qaçış mərhələlərini qət edəcəklər.

IRONMAN yarışları artıq dünyada dözümlülüyün ən məşhur və ən çətin sınaqlarından biri kimi tanınır. Tam məsafəni başa vuran idmançılar "dəmir insanlar" adlandırılır. Azərbaycanda isə bu hərəkatın tarixi nisbətən yaxın dövrə təsadüf edir.

10 il əvvəl, 2016-cı ildə Firdovsi Kərimov Fransanın Vişi şəhərində keçirilən tamməsafəli IRONMAN yarışını başa vuraraq bu uğura imza atan ilk azərbaycanlı olub. 2022-ci ildə isə Rəbiyyə Orucova tamməsafəli IRONMAN yarışını başa vuran ilk azərbaycanlı qadın kimi tarixə düşüb.

İndi ilk azərbaycanlının IRONMAN finişinə çatmasından 10 il sonra, ölkəmiz dünyanın məşhur triatlon seriyalarından birinin yarışına evsahibliyi etməyə hazırlaşır.

Bu nailiyyətlərin arxasında şəxsi hekayələr, illərlə davam edən gərgin məşqlər və Azərbaycan triatlonunun "IRONMAN 70.3" startına qədər keçdiyi uzun yol dayanır.

Maraqlıdır ki, Firdovsi Kərimov 2016-cı ilədək peşəkar idmanla məşğul olmayıb. IRONMAN yarışının hazırlığına demək olar ki, sıfırdan başlayan Kərimov üçün turnir həyatının ən unudulmaz günlərindən birinə çevrilib. Aradan on il keçməsinə baxmayaraq, həmin günün təəssüratları hələ də onun yaddaşındadır.

Kərimov üçün yarışda Azərbaycanı təmsil edən yeganə iştirakçı olmaq xüsusi əhəmiyyət daşıyıb. Onun sözlərinə görə, ölkəsini təmsil etməsi yarışın ən çətin anlarında ona əlavə güc verib və finişə çatmaq əzmini artırıb: "Ailəmin, dostlarımın və bütün Azərbaycanın dəstəyini hiss edirdim. Məsafənin son 300 metrini əlimdə Azərbaycan bayrağı ilə qaçdım və finişimi doğma vətənimə həsr etdim".

Kərimovun tarixi nəticəsindən sonra Azərbaycanda triatlona maraq tədricən artmağa başlayıb. Sonrakı illərdə bu idman növü ilə məşğul olanların sayı da çoxalıb. Bu il "IRONMAN 70.3" yarışında Azərbaycanı 123 iştirakçı təmsil edəcək.

Qarşıdan gələn yarış Kərimov üçün də xüsusi əhəmiyyət daşıyır. O, ilk IRONMAN yarışından sonra belə bir turnirin bir gün öz vətənində də keçiriləcəyini arzulayıb. 10 il sonra həmin arzu artıq reallığa çevrilir: "Əvvəllər azərbaycanlı triatletlər IRONMAN startlarında öz ölkələrini təmsil etmək üçün xaricə gedirdilərsə, indi Azərbaycan özü ilk dəfə dünya seriyasının yarışına evsahibliyi edir. Biz IRONMAN yarışlarında iştirak etdiyimiz hər yerdə Azərbaycan bayrağını yüksəltmişik. İndi isə Azərbaycan həmin yarışlara evsahibliyi edən ölkələr sırasında olacaq".

Rəbiyyə Orucova isə öz nailiyyətinin arxasında illərlə davam edən məşqlərin, böyük əzm və güclü iradənin dayandığını bildirib: "Bu, mənim üçün, sadəcə, bir finiş deyildi, böyük əməyin, intizamın və özünə inamın nəticəsi idi. Finiş xəttini keçəndə IRONMAN-ı başa vuran ilk azərbaycanlı qadın olduğumu anlayırdım. Bu, təkcə özüm üçün deyil, həm də gözəl ölkəm Azərbaycan üçün böyük qürur anı idi".

Orucovanın sözlərinə görə, məhz finişdə bir çox sərhədin, əslində, ilk növbədə insanın öz zehnində mövcud olduğunu dərk edib. Orucovanın tarixi finişindən 4 il sonra Bakı "IRONMAN 70.3" yarışına evsahibliyi edəcək. Dünyanın müxtəlif ölkələrindən idmançılar məşhur triatlon məsafəsini qət etmək üçün Azərbaycanın paytaxtına gələcəklər.

Orucova Azərbaycanın dünya triatlon xəritəsində yer almasına çox sevindiyini deyib: "Bu, idmanın inkişafı və yeni idmançıların cəlb edilməsi üçün böyük imkandır".

O, hesab edir ki, "IRONMAN 70.3" yarışının Bakıda keçirilməsi daha çox qadını triatlona cəlb edə, onları öz güclərini sınamağa və qarşılarına yeni idman hədəfləri qoymağa ruhlandıra bilər: "Bir qadın başqa bir qadının ağır məşqlərdən keçərək, nəhayət, IRONMAN yarışını başa vurduğunu görəndə özü də bunu bacara biləcəyinə inanmağa başlayır".

Qeyd edək ki, "IRONMAN 70.3" yarışı sentyabrın 5-də Gənclər və İdman Nazirliyi, Azərbaycan Triatlon Federasiyası və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin təşkilatçılığı ilə keçiriləcək.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Beynəlxalq Türk Akademiyasının prezidenti, AMEA-nın həqiqi üzvü Şahin Mustafayevə həyat yoldaşı

**İNARƏ MURADƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3318
Sifariş 1123
Qiyməti 60 qəpik